Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 135 (8158) ÇƏRŞƏNBƏ AXŞAMI, 25 iyun 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Daha yüksək rifaha yol açan sosial siyasət

## Prezident İlham Əliyevin imzaladığı sərəncamlar bu istiqamətdə həyata keçirilən silsilə tədbirlərin növbəti mərhələsidir

İqtisadi və sosial məsələlərlə bağlı hələ bu il fevralın 25-də keçirilən müşavirədə Prezident İlham Əliyev 2019-cu ilin sosial inkişaf və əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını bildirmişdi. "Biz əlavə gəlirləri ilk növbədə vətəndaşların sosial müdafiəsinə yönəltməliyik". Belə də oldu.

### Sosial məsələlər daim prioritetdir

Ümumiyyətlə, hər bir vətəndaşın etibarlı sosial təminatı Azərbaycan dövlətinin sosial siyasətinin əsas mahiyyətlərindən biridir. Təbii ki, sosial sahədə qarşıya qoyulan hədəflərin dəf edilməsi iqtisadi imkanlardan əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan respublikamızın inkişaf reallıqlarından biri iqtisadiyyatdakı irəliləyişin sosial sahəyə təsiridir. İqtisadi islahatlar zamanı da özünü qabarıq göstərən ən önəmli cəhətlərdən biri sosialyönümlülük faktorunun daim ön planda olmasıdır. Bütün bunlar onu göstərir ki, ölkədə reallaşan sosial siyasətin fəlsəfəsi hər bir vətəndaşın yüksək sosial rifahının təmin edilməsidir. Bu ilin fevral ayından başlayaraq həyata keçirilən birinci sosial paket bunun əyani təsdiqi oldu. Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar göstərdi ki, vətəndaşların sosial rifahının daha da yaxşılaşdırılması daim prioritetdir.

Təbii ki, sosial islahatlar paketi birdən-birə meydana çıxmadı. Hələ ötən ilin prezident seçkilərindən sonra Milli Məclisdə keçirilən andiçmə mərasimində İlham Əliyev bunun anonsunu vermişdi. Sosial siyasətin daim diqqət mərkəzində olduğunu deyən Prezident növbəti illərdə çox ciddi islahatların aparılacağını və bütün bunların vətəndaşlarımızın yaşayış səviyyəsini daha da yaxşılaşdıracağını bəyan etdi. Artıq keçən ilin ikinci yarısından başlayaraq islahatların dəqiqləşdirilməsi, müəyyən edilməsi və ardıcıllığı haqqında geniş işlər aparılmışdı. Bu ilin fevral ayında isə İlham Əliyev təxminən 3 milyon vətəndaşı əhatə edən bir sosial paketi elan etdi. Bu paketdə minimum əməkhaqqının, əmək pensiyalarının minimum məbləğinin, sosial müavinətlərin, tələbə, magistr və doktorantlara verilən təqaüdlərin, məcburi köçkünlərə verilən müavinətlərin artırılması, problemli kreditlərə son qoyulması, yeni inşa olunmuş binalardakı mənzillərin sənədləşdirilməsi kimi vətəndaş məmnunluğuna yol açan məsələlər öz əksini tapdı.

### İlin ikinci sosial paketi

Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev sosial məsələlərə toxunaraq bu sahədə siyasətin ardıcıl şəkildə aparılacağını bəyan etdi: *"Bu il maaşlar, pensiyalar artırıldı və bu proses davam etdiriləcək. Mən bildirmişəm, biz bu məsələni daim diqqətdə saxlayırıq. Qeyd edim ki, son 15 il ərzində maaşlar və pensiyalar dəfələrlə artıb. Ancaq bu, bizi tam qane edə bilməz.*

Ardı 6-cı səh.



# Azərbaycan dünyaya nümunə göstərir

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva BMT-nin Dövlət Xidmətləri Forumunun açılış mərasimində iştirak edib

İyunun 24-də Bakıda, Heydər Əliyev Mərkəzində Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə BMT-nin Dövlət Xidmətləri Forumu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva forumun açılış mərasimində iştirak edib.

Dünyanın 190-dan çox ölkəsindən 500-dən artıq nümayəndənin iştirak etdiyi builki foruma müxtəlif ölkələrin dövlət idarəçiliyi və dövlət xidmətləri üzrə nazirləri, yerli idarəetmə orqanlarının, akademik dairələrin və özəl sektorun rəhbər şəxsləri qatılıblar.

Forum 2003-cü ildən etibarən 23 iyun - BMT-nin Dövlət Xidmətləri Günü ərəfəsində hər il təşkil olunur. Forumun keçirilməsində məqsəd dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual məsələlər üzrə müzakirələrin aparılması, habelə dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələrinin mübadiləsidir. Həmçinin forum çərçivəsində dövlət xidmətləri sahəsində dünya üzrə ən qabaqcıl və innovativ modellər mükafatlandırılacaq.

Dövlət xidmətlərinin göstərilməsi sahəsində ölkəmizdə təşkil olunan ilk BMT tədbiri olan bu forum çərçivəsində plenar sessiyalar, 9 fərqli aktual mövzu üzrə seminar və 4 paralel tədbir təşkil ediləcək. Eyni zamanda, 5 fərqli kateqoriya üzrə BMT Dövlət Xidmətləri Mükafatının builki qaliblərinin təltif olunması, Dövlət Agentliyi ilə xarici ölkələrin bir sıra qurumları arasında əməkdaşlığa dair müqavilələrin imzalanması planlaşdırılır.

Forumun Azərbaycan Respublikasında keçirilməsinə zəmin yaradan ən önəmli amillər ölkəmizdə dövlət xidmətləri sahəsində qazanılmış nailiyyətlər, "ASAN xidmət"in uğurlu fəaliyyəti və 2015-ci ildə BMT-nin Dövlət Xidmətləri Mükafatına layiq görülməsidir.

Əvvəlcə birgə foto çəkdirildi.

Ardı 2-ci səh.

# Sosial islahatlar inqilabi xarakter almışdır

Son illər Prezident İlham Əliyevin sosial sahədə həyata keçirdiyi islahatlar, atdığı mühüm addımlar miqyasına, təsir dairəsinə və əhəmiyyətinə görə həqiqətən inqilabi xarakter almışdır.

Müasir texnologiyalar dövründə hərtərəfli biliklərə yiyələnmiş intellektual peşəkarlara tələbat çoxaldıqca dövlətin elmə, keyfiyyətli təhsilə, bilik əldə edilməsi ilə bağlı bütün strukturlara kapital qoyuluşu artır, həmin strukturlarda çalışan insanların maddi rifahının yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır. Dövlət başçısının 18 iyun tarixli sərəncamları bir daha göstərdi ki, iqtisadiyyat sahəsində bugünədək aparılan siyasətin, çoxsaylı radikal islahatların mərkəzində son hədəf kimi Azərbaycan vətəndaşının həyat səviyyəsinin yüksəldilməsi durur.

Ardı 6-cı səh.

# Tarixi kökə söykənən diqqət və qayğı

Ümummilli lider Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Dahi rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq, hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".

Ulu öndər təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləməklə bərabər, Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirmişdir.

Ardı 6-cı səh.

# Azərbaycan BMT ilə uğurlu əməkdaşlıq həyata keçirir

İyunun 24-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakıda keçirilən Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumunda iştirak edən BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumunun ölkəmizdə keçirilməsi barədə verilən qərara görə minnətdarlığını ifadə etdi və forumun nəticələrinin dövlət xidmətlərinin islahatları ilə bağlı proseslərə, bu istiqamətdə fikir və təcrübə mübadiləsinin aparılmasında iştirakçı ölkələrə faydalı olacağına ümid etdiyini bildirdi. Azərbaycanın BMT ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini qeyd edən Mehriban Əliyeva Azərbaycanın müstəqilliyinin bərpa olunduğu ilk illərdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmizdə 1 milyon qaçqın və məcburi köçkünə BMT tərəfindən göstərilən yardımı yüksək qiymətləndirdi. Azərbaycanın son illərdə əldə etdiyi iqtisadi nailiyyətlərə toxunan Birinci vitse-prezident ölkəmizin həm də bir çox mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etdiyini vurğuladı və Bakıda Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumunun da uğurla keçəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə təşəkkür edən BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirdi. Bakıda dövlət xidmətləri ilə bağlı növbəti forumun keçirildiyini deyən Liu Cenmin bu forumda xeyli sayda nümayəndənin iştirakının önəmini qeyd etdi. Azərbaycanda dövlət xidmətlərinin çox təkmil və yüksək səviyyədə həyata keçirildiyini bildirən BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini bütün bu işlərin Azərbaycan Prezidentinin rəhbərliyi sayəsində mümkün olduğunu vurğuladı. Liu Cenmin BMT-nin təşkilata üzv 193 dövlətlə birgə 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədləri gündəliyinin icrası ilə məşğul olduğunu qeyd etdi və bu işdə dövlət xidmətlərinin səviyyəsinin təkmilləşdirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirdi.

# Barama tədarükü davam edir

Kümçülük sahəsində ixtisaslaşan rayonlarımız arasında Oğuz da var. 2016-cı ildən başlayaraq rayonun əksər kəndlərində ipəkqurdu bəslənilir.

Oğuz Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Azad Əliyev bildirdi ki, cari ilin məhsulu üçün rayona Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə Qax İpəkçilik Damazlıq Müəssisəsindən 300 qutu ipəkqurdu toxumu gətirilərək ayrı-ayrı kəndlərdə 130 kümçüyə paylanıb. Toxumun bəslənməsi üçün Oğuz DAİM-in mütəxəssisləri tərəfindən davamlı nəzarət edilib və yem tədarükü üçün lazımi kömək göstərilib.

Ardı 7-ci səh.



# Azərbaycan dünyaya nümunə göstərir



*Əvvəli 1-ci səh.*





Forumun açılışında çıxış edən Birinci vitse-prezident **Mehriban ƏLİYEVA** dedi.

- Cənab Baş katibin müavini, zati-aliləri.

Xanımlar və cənablar, hörmətli qonaqlar, əziz dostlar.

Sizin hamınızı Azərbaycanda salamlamaqdan məmnunam. Şərqi Avropa regionunda ilk dəfə təşkil olunan BMT-nin Dövlət Xidmətləri Forumunu keçirməkdən şərəf hissi duyuruq. Bu tədbiri paytaxtımızda keçirmək qərarına görə BMT-yə təşəkkürümüzü bildiririk. Biz bunu Azərbaycanın dövlət xidmətləri sahəsində əldə etdiyi nailiyyətlərin dəyərləndirilməsi hesab edirik. Bu il keçirilən tədbirin mövzusu bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Bu, dünyanın müxtəlif yerlərindən gəlmiş, qərar qəbul edən yüksək rütbəli şəxslər üçün təcrübələrini bölüşmək, çağırışları müzakirə etmək və BMT-nin 2030-cu il gündəliyinin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün faydalı platformadır. Bu prosesdə dövlət qurumlarının xalqımıza yüksəkkeyfiyyətli xidmətlər göstərmək və innovativ dəyişikliklərdə iştirak etmək bacarığı xüsusi rol oynayır. Bu baxımdan, mən fürsətdən istifadə edərək bu gün sizinlə səmərəli dövlət qulluğu sistemi sahəsində Azərbaycanın uğurları ilə bölüşmək istərdim.

Azərbaycanın Birinci vitse-prezidenti vurğuladı ki, əsas hədəf və məqsəd yeni xidmətlərin insanlara yönəlməsi və vətəndaşların keçmişdə üzləşdiyi çətinliklərin aradan qaldırılmasından, dövlət xidmətlərini insanlar üçün əlçatan, rahat, asan və səmərəli etməkdən ibarətdir. "Vahid pəncərə" prinsipi əsasında dövlət xidmətlərinin göstərilməsi ideyasının bu cür ərsəyə gəldiyini qeyd edən Mehriban Əliyeva ASAN adının Azərbaycan dilində, mənaca, həmçinin "asan" olduğunu vurğulayaraq dedi:

- "ASAN xidmət" Azərbaycan Prezidentinin təşəbbüsü ilə genişmiqyaslı dövlət idarəçiliyi islahatlarının bir hissəsi kimi 2012-ci ildə təsis edildi. Xalq isə dərhal bu islahatları alqışladı. "ASAN xidmət" Bakıda kiçik pilot layihə ilə fəaliyyətə başladı. Həmin vaxt xalqın tələbatlarına şəffaf, əlçatan, səmərəli və rahat şəkildə cavab vermək məqsədilə bir neçə dövlət xidmətləri göstərən qurum bir binaya toplaşdı. ASAN dərhal əhali arasında o qədər populyarlaşdı ki, biz, bu uğurun davamı olaraq göstərilən xidmətlərin sayını və növünü çoxaltmaq fikrinə gəldik və "ASAN xidmət" Azərbaycanın rayonlarında da açılmağa başlandı.

Nisbətən az müddət ərzində "ASAN xidmət"in insanların tələbatlarını həll etməkdə dövlət xidmətləri sahəsində yeni mədəniyyəti təqdim edən milli brendə çevrildiyini deyən Birinci vitse-prezident hazırda 10 "ASAN xidmət"in rayonlarda, 5 "ASAN xidmət"in isə Bakıda fəaliyyət göstərdiyini bildirdi. Planda bu ilin sonuna qədər əlavə 5 "ASAN xidmət"in rayonlarda, ikisinin isə Bakıda açmaq olduğunu diqqətə çatdıran Mehriban Əliyeva dedi:

- Görülmüş işlərin həcmi baxımından sizə bir rəqəmi təqdim edəcəyəm. 2013-cü ildən etibarən ASAN mərkəzlərində ölkə üzrə 30 milyondan artıq ərizəyə baxılmışdır. Bu gün həmin mərkəzlərdə 320 dövlət və özəl xidmət göstərilir. 12 müxtəlif dövlət qurumu və bir qrup özəl şirkətlər bir bina daxilində "ASAN xidmət"də təmsil olunurlar. Çox qısa müddət ərzində "ASAN xidmət" dövlət ilə vətəndaş arasında münasibətlərdə mərkəzi yeri tutdu.

"Vətəndaş rəyinin daimi monitorinqi bu layihənin uzun perspektivdə uğuruna xidmət edir", - deyən Birinci vitse-prezident bu uğurun digər səbəbinin gənclərimizin fəal və geniş şəkildə iştirakı ilə bağlı olduğunu söylədi. Mehriban Əliyeva qeyd etdi ki, 2013-cü ildən başlayaraq 19 mindən artıq könüllü ASAN-ın işində iştirak edib. Onlardan 1100 nəfərinin müxtəlif "ASAN xidmət"lərdə tam ştatlı işlə təmin olunduğunu vurğulayan Birinci vitse-prezident dedi:

- Biz istedadlı, yüksək motivasiyalı və yaradıcı gənclərimizin ölkənin müasirləşməsində necə yaxından iştirak etməsini görməkdən fərəh hissi duyuruq. Müsbət təcrübəmiz beynəlxalq ictimaiyyətin də diqqətini cəlb etmişdir və 2015-ci ildə "ASAN xidmət" dövlət xidmətlərinin təchizatının təkmilləşdirilməsi kateqoriyasında BMT tərəfindən mükafata layiq görülmüşdür. Bizim ASAN ilə bağlı olan təcrübəmizin daha geniş regionda ən yaxşı təcrübə kimi izlənilməsinə görə fərəhlənirik.

Mehriban Əliyeva vurğuladı ki, bu ilin əvvəlində birinci bənzər mərkəz Kabildə açılıb, Əfqanıstandan olan 100-dən çox ekspertə ASAN tərəfindən təlim keçirilib. Birinci vitse-prezident yaxşı təcrübələrimizi başqa ölkələrlə paylaşmağı davam etdirməyə hazır olduğumuzu bildirdi, bugünədək ASAN-la müxtəlif ölkələr və beynəlxalq təşkilatlar arasında 10 anlaşma memorandumunun imzalandığını vurğuladı. Mehriban Əliyeva qeyd etdi ki, biz bununla kifayətlənmirik və dövlət xidmətlərinin keyfiyyətini təkmilləşdirməyə davam edirik. İnsanlara proaktiv elektron xidmətlərin göstərilməsi üçün Asan my-gov portalının yaradıldığını, bununla da vətəndaşların, həmçinin onlayn xidmətdən yararlandığını diqqətə çatdıran Birinci vitse-prezident 2016-cı ildə ölkəmizdə ASAN-ın uğur hekayəsinin davamı olaraq ABAD adı altında digər sosialyönümlü xidmətin fəaliyyətə başladığını xatırlatdı. ABAD Azərbaycanın regionlarında kiçik ailə təsərrüfatı bizneslərinə yardım etmək və kiçik sahibkarlığı inkişaf etdirmək məqsədini daşıyan publik hüquqi şəxsdir. Bu layihənin reallaşmasında məqsədin ölkənin sosial və iqtisadi inkişafına vətəndaşların daha fəal və yaradıcı şəkildə cəlb edilməsi olduğunu, 400-ə yaxın üzvü olan ABAD-ın regionlarda işsizlik məsələsinin həlli üçün mühüm bir vasitəyə çevrildiyini bildirən Mehriban Əliyeva dedi:

- Xanımlar və cənablar, bu, vətəndaşlarımızın faydalanması üçün dövlət xidmətləri sahəsində islahatların aparılması üzrə Azərbaycanın təcrübəsinə dair kiçik bir xülasə idi. Müntəzəm paylanıla və araşdırıla bilən digər çoxsaylı nümunə və təcrübələrin mövcud olduğuna əminəm. Məhz buna görə Azərbaycan bilavasitə bu forumun nəticəsi olaraq Dövlət Xidmətlərinin Təchizi üzrə Müəssisələrin ASAN Assosiasiyasının yaradılması təşəbbüsünü irəli sürmüşdür. Ümid edirəm ki, bu yeni assosiasiya dövlət xidmətlərinin səmərəli təchizi üçün ekspertlər arasında dialoqu təşviq etmək məqsədi daşıyan əhəmiyyətli beynəlxalq bir alətə çevriləcəkdir. Bu, sözügedən sahədə bütün mövcud yaxşı təcrübələrdən istifadə etmək istəyində olanlara yardım edə bilər.

Əziz dostlar, bir daha Azərbaycana xoş gəlmisiniz. Mən hamınıza maraqlı və faydalı müzakirələr, forumun işinə böyük uğurlar arzu edirəm. Nəhayət, sizi Bakıda qaldığınız müddətdə boş vaxt tapıb bizim gözəl şəhərimizi kəşf etməyə və ənənəvi Azərbaycan qonaqpərvərliyindən həzz almağa dəvət edirəm. Təşəkkür edirəm.

* * *

Sonra BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini **Liu CENMİN** çıxış etdi. BMT Baş katibinin adından 2019-cu il BMT Dövlət Xidmətləri Forumunun bütün iştirakçılarına səmimi salamlarını çatdıran Liu Cenmin tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq dedi:

- Builki BMT Dövlət Xidmətləri Forumuna və mükafatlandırma mərasiminə evsahibliyi etdikləri üçün Azərbaycan Respublikasının hökumətinə və xalqına səmimi təşəkkürlərimi ifadə etmək istəyirəm. Dərin təşəkkürlərimi düzgün istiqamət verdiyi üçün cənab Prezident İlham Əliyevə çatdırmaq istəyirəm. Dəstəyi, misilsiz fədakarlığı, iştirakı və çıxışı üçün Birinci vitse-prezidentə minnətdarlıq etmək istəyirəm. Azərbaycan Respublikasının bütün dünyada məşhur olan alicənablığını və qonaqpərvərliyini birbaşa görmək imkanımız oldu.

BMT Baş katibinin müavini Bakının tarixi və müasir memarlıq nümunələrini birləşdirən möhtəşəm bir şəhər olduğunu da vurğuladı. Forum iştirakçılarının səmərəli dövlət xidmətlərinin göstərilməsi, innovativ transformasiyalar və bu istiqamətli institutlar yolu ilə Davamlı İnkişaf Məqsədlərinə çatmağı özünə hədəf seçdiyini deyən Liu Cenmin BMT-nin 2030-cu il Davamlı İnkişaf Gündəliyi barədə ətraflı danışdı. Qeyd etdi ki, Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün şəffaf, hesabatlı və səmərəli institutlar olmalıdır. İnklüziv, firavan və davamlı dünya yaratmaq üçün əldə edilən uğurlarla yanaşı, sosial, iqtisadi və ətraf mühit çağırışlarının olduğunu bildirən BMT Baş katibinin müavini bu baxımdan müvafiq institutların indiyədək heç vaxt olmadığı qədər əhəmiyyətli olduğunu vurğuladı. Gələn ay Nyu Yorkda üzv dövlətlər, o cümlədən Azərbaycanın da iştirak edəcəyi siyasi foruma toxunan Liu Cenmin inklüziv, həssas, şəffaf və səmərəli institutların dayanıqlı inkişaf üçün fundamental əhəmiyyətini vurğuladı. BMT Baş katibinin müavini ölkəmizdə dövlət xidməti sahəsində əldə edilən uğurları da xüsusi qeyd edərək dedi:







- Azərbaycan Respublikası innovativ idarəetmə vasitəsilə inklüziv, səmərəli və insanyönümlü İKT əsaslı dövlət xidməti sistemi yaradıb. Beləliklə, sosial xidmətlərin göstərilməsində dövlət qulluqçuları ilə vətəndaşlar arasındakı məsafəni qısaldıb və dövlət qulluqçuları ilə vətəndaşlar arasındakı ünsiyyəti şəffaflaşdırıb. Dövlət bu misilsiz nəticəni xidmətlərin göstərilməsini müasirləşdirməyə bütün hökumət qurumlarının birgə yanaşması, ASAN mərkəzlərin yaradılması və yenilikçi e-hökumət xidmətlərinin tətbiq edilməsi, xidmətin keyfiyyətinin yüksəldilməsi və bu xidmətlərlə vətəndaşların məmnunluğunun artırılması ilə əldə edib. Bu, nəticənin əldə edilməsində çox vacibdir.

* * *

BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini ölkəmizdə rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatını Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya təqdim etdi.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri **Ülvi MEHDİYEV** çıxış edərək bildirdi ki, Dayanıqlı İnkişaf Məqsədləri qəbul olunandan səmərəli və şəffaf təsisatların yaradılması beynəlxalq ictimaiyyətin başlıca hədəflərindən birinə çevrilib və bu istiqamətdə Azərbaycanda da xeyli tədbirlər görülüb. Bu sahədə ölkəmiz üçün perspektivlərin müsbət olduğunu vurğulayan Ülvi Mehdiyev bunun əsasən innovasiyaların dövlət idarəçiliyində uğurlu tətbiqi, eləcə də dövlət xidmətlərinin göstərilməsində vətəndaş yönümlü yanaşma ilə şərtləndiyini bildirərək dedi:

- Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevin həyata keçirdiyi islahatlar institusional mexanizmlər, strukturlar, sistemlər və innovativ metodlara əsaslanır ki, onlar vətəndaş cəmiyyətinin cəlb edilməsi üçün daha əlverişli olsun. Birinci vitse-prezident Mehriban Əliyevanın qeyd etdiyi kimi, "ASAN xidmət" Azərbaycan Prezidentinin təşəbbüsü ilə 2012-ci ildə dövlət idarəçiliyi sahəsində aparılan islahatların tərkib hissəsi kimi yaradılıb. O, qabaqcıl idarəetmə prinsiplərinə əsaslanır və ölkəmizdə dövlət xidməti sahəsində fundamental dəyişikliyə səbəb olub. "ASAN xidmət" mərkəzləri səmərəlilik, əlçatanlıq, şəffaflıq, rahatlıq və innovasiya prinsiplərinə əsaslanan ən yüksək xidmət səviyyəsini təmin edir. Təsadüfi deyil ki, "ASAN xidmət"in vətəndaşlar tərəfindən qiymətləndirilməsi, demək olar ki, 100 faiz müsbətdir.

"Heç kimi kənarda qoymadan şəffaf və səmərəli xidmətlərin təqdim edilməsi Azərbaycan hökumətinin nail olduğu məqsəddir. Şəffaflıq və məsuliyyətlilik bütün ASAN mərkəzlərində tam təmin olunub", - deyən Ülvi Mehdiyev BMT-nin Dövlət Xidmətləri Mükafatına layiq görülmüş "ASAN xidmət"in təcrübəsinin bir neçə ölkədə tətbiq olunduğunu, bir neçə ölkə və beynəlxalq təşkilatla, o cümlədən Fransa, İtaliya, Koreya Respublikası, Monteneqro, Mərakeş, Uqanda, İndoneziya, ISESCO və Afrikanın Birləşmiş şəhərlər və yerli hökumətlər təşkilatı ilə anlaşma memorandumlarının imzalandığını diqqətə çatdırdı.

* * *

Daha sonra İndoneziya Respublikasının Qunadarma Universitetinin rektoru və Özəl Universitetlər Assosiasiyasının vitse-prezidenti, professor xanım **Eko Sri MARGİANTİ** çıxış etdi. Forumun əhəmiyyətini vurğulayan, belə tədbirdə iştirak etməyin önəmini qeyd edən qonaq dedi:

- İcazə verin, bu cür çox vacib və əlamətdar gündə nitq söyləmək üçün dəvət olunduğuma görə dərin minnətdarlığımı bildirim. Bu zamanı sizinlə paylaşmaqla öz şəxsi fikir və təcrübələrimi ifadə etmək mənim üçün həqiqətən də böyük şərəfdir. Həmçinin Bakıya ilk dəfə səfər etdiyimə görə bu, mənim üçün xüsusi imkandır.

Zati-aliləri, hörmətli qonaqlar, xanımlar və cənablar. Bu xüsusi məqamda mən, həmçinin BMT-nin Dövlət Xidmətləri Forumuna uğurla evsahibliyi etdiyinə görə Azərbaycan Respublikası hökumətini təbrik etmək istəyirəm.

Eko Sri Margianti diqqətə çatdırdı ki, o, üç il ərzində İndoneziyanın dövlət xidmətləri üzrə qeyri-rəsmi müsabiqəsinin qiymətləndiricisi olub. Fəaliyyəti dövründə əldə etdiyi təcrübəni bölüşən indoneziyalı qonaq ölkəsində dövlət xidmətlərinin sürətləndirilməsi istiqamətində görülən işlərdən danışdı. O, BMT-nin 2030-cu ilə qədər nəzərdə tutulan Dayanıqlı İnkişaf Məqsədləri gündəliyinə toxundu, bu istiqamətdə atılan addımlarda innovasiyanın tətbiqinə xüsusi yer ayrıldığını vurğuladı. Eko Sri Margianti forumda müzakirə olunan məsələlərlə bağlı fikirlərini söylədi və qeyd etdi ki, mövcud çağırışlara şəffaflıq, səmərəlilik və hesabatlılıq prinsiplərini rəhbər tutmaqla cavab vermək mümkündür. O, bu məsələdə beynəlxalq əməkdaşlığın roluna da toxunaraq gələcəkdə daha böyük nailiyyətlərə imza atmaq üçün birgə səylərin əhəmiyyətini xüsusi qeyd etdi.

* * *

Forum işini müxtəlif mövzulara aid sessiyalarla davam etdirdi.

## Xorvatiya Respublikasının Prezidenti zati-aliləri xanım Kolinda Qrabar-Kitaroviçə

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı - Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Xorvatiya münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur. İnanıram ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyun 2019-cu il*

## Sloveniya Respublikasının Prezidenti zati-aliləri cənab Borut Pahora

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının milli bayramı - Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Mahmudov Qəşəm Fərzalı oğlu - polkovnik
Qasımov Mübariz Sayıl oğlu - mayor
Orucov Telman İlyas oğlu - mayor
Mustafayev İlham Abbas oğlu - kiçik leytenant

**"Vətən uğrunda" medalı ilə**

Ələkbərov Pərviz Ağasalam oğlu - polkovnik
Əliyev Əli Şahverdi oğlu - tibb xidməti polkovniki
Nəsibov Bayram Nəsib oğlu - polkovnik
Məmmədov Anar Əmiralı oğlu - polkovnik-leytenant
Məmmədov Zaur Alxan oğlu - polkovnik-leytenant
Rizvanov Səməndər Səməd oğlu - polkovnik-leytenant
Vəliyev Zöhrab Naib oğlu - mayor

**"İgidliyə görə" medalı ilə**

Əsədov Səxavət Ağagül oğlu - polkovnik
Cumayev Akif Kazım oğlu - polkovnik-leytenant
Əfəndiyev Samir Zakir oğlu - polkovnik-leytenant
Həziyev Samir Mətləb oğlu - polkovnik-leytenant
Mövlanov Nizami Bəydəmir oğlu - polkovnik-leytenant
Bağıyev Mirdamət Səristan oğlu - mayor
Babayev Vüqar Eyvaz oğlu - gizir
Şəkərov Firudin İlqar oğlu - gizir
Rzaquliyev Allahqulu Yusif oğlu - çavuş
Məmmədov Mehman Məmməd oğlu - kiçik çavuş

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Babayev Əlizadə Əhmədağa oğlu - polkovnik
Dərgahlı Vaqif Rafiq oğlu - polkovnik
Gülməmmədov Mehman Fərman oğlu - polkovnik
Məhərrəmov İzzət Məhəmmədəli oğlu - polkovnik
Məmmədov İsmixan Valeh oğlu - polkovnik
Nəbiyev Firuddin İsaxan oğlu - tibb xidməti polkovniki
Osmanov Tofiq Hüseyn oğlu - 1-ci dərəcəli kapitan
Rəcəbov Yadigar Mütəllim oğlu - polkovnik
Abasov Vüqar Tofiq oğlu - 2-ci dərəcəli kapitan
Ağabalayev Kamran Hacıəli oğlu - polkovnik-leytenant
Ağayev Bəhruz Allahverdi oğlu - polkovnik-leytenant
Divanov Nazim Musa oğlu - polkovnik-leytenant
Əfəndiyev Samir Sabir oğlu - polkovnik-leytenant
Əliyev Bəxtiyar Oktay oğlu - polkovnik-leytenant
Əzizov Firudin Novruz oğlu - polkovnik-leytenant
Nəsirov Eldəniz Ağamalı oğlu - polkovnik-leytenant
Niftəliyev Rəşid Ağaşərif oğlu - polkovnik-leytenant
Saruxanov Saruxan İslamuddin oğlu - polkovnik-leytenant
Yolçuyev Yolçu Məhəmməd oğlu - polkovnik-leytenant
Piriyev Rəşad Piri oğlu - mayor
Zülfüqarov Zülfüqar Rauf oğlu - mayor
Qorçiyev Cəfər Kəniş oğlu - kapitan
Məlikov Famil Alim oğlu - kapitan
Musibov Veysəl Yadullayeviç - kapitan
Məmmədov Yaşar Mürsəl oğlu - leytenant
Mustafayev Cavad Cavanşir oğlu - leytenant
Abdullayev İbrahim Savalan oğlu - baş gizir
Əliyev Elşad Əli oğlu - gizir
Qurbanov İsmayıl Cəlal oğlu - gizir
Hacəliyev Mübariz Hacəli oğlu - baş çavuş
Cəfərov Müşfiq Qərib oğlu - çavuş
Dəmirov Alim Ərəb oğlu - çavuş
Məmmədov Vüqar Vilayət oğlu - çavuş
Vəliyev Elçin Əjdər oğlu - kiçik çavuş
Babayev Müşfiq İsmayıl oğlu - baş əsgər (ölümündən sonra)
Məmmədov Ayaz Əvəz oğlu - əsgər
Nəmətov Namiq Ağaverdi oğlu - əsgər (ölümündən sonra)
Ramazanov Azad Gülağa oğlu - əsgər (ölümündən sonra)
Şükürov Saleh Niyaz oğlu - əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" hərbi rütbəsi**

general-mayor Fuad Nadir oğlu Məmmədova
general-mayor Zahid İbrahim oğlu Hüseynova

**"general-mayor" hərbi rütbəsi**

polkovnik Qədir Əşrəf oğlu Nəsibova
polkovnik Rasim Rza oğlu Babayevə
polkovnik Vüqar Əfqan oğlu Əliverdiyevə
polkovnik Polad İsrayıl oğlu Həşimova
polkovnik İlqar Zakir oğlu Lətifova
polkovnik Məhəmməd Kərim oğlu Həsənova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2019-cu il*

# Azərbaycanın və Monteneqronun Baş nazirlərinin görüşü olub



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun iyunun 24-də Monteneqronun Baş naziri Duşko Markoviç ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Monteneqronun Baş nazirlərinin təkbətək görüşü keçirilib.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Baş nazir Novruz Məmmədov Azərbaycan-Monteneqro dostluq əlaqələrindən danışaraq ölkələrimiz arasında çox yaxşı münasibətlərin qurulduğunu vurğulayıb. "Azərbaycan hər zaman Monteneqro ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Hesab edirəm ki, münasibətlərimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin xüsusi rolu var. Əlbəttə, bu səfərlərin, aparılan danışıqların nəticəsidir ki, bu gün ölkələrimiz arasında iqtisadiyyatın müxtəlif istiqamətlərində, o cümlədən qarşılıqlı investisiyaların qoyuluşu sahəsində səmərəli əməkdaşlıq mövcuddur. Biz gələcəkdə bu əlaqələri daha da genişləndirməliyik. Sizin səfəriniz də bu münasibətlərin inkişafına öz müsbət töhfəsini verəcək", - deyə Novruz Məmmədov vurğulayıb.

Azərbaycanın Dağlıq Qarabağ regionunun və onun ətrafında yerləşən 7 rayonun uzun illərdir erməni işğalı altında olduğunu bildirən Novruz Məmmədov qeyd edib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının qətnamələri, Helsinki Yekun Aktı əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən Baş nazir Duşko Markoviç Azərbaycan ilə Monteneqro arasında çox yaxşı münasibətlərin mövcud olduğunu vurğulayıb. "Monteneqro kiçik ölkədir. Bizim bir çox ölkələrlə dostluq əlaqələrimiz var. Bu münasibətlərin bəziləri, o cümlədən Azərbaycan ilə əlaqələr bizim üçün xüsusi əhəmiyyət daşıyır", - deyə Duşko Markoviç vurğulayıb.

Görüşdə enerji, turizm, tikinti, nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi imkanlarına və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

* * *

İyunun 24-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun adından Monteneqronun Baş naziri Duşko Markoviçin şərəfinə rəsmi nahar verilib.

# Azərbaycan ilə Monteneqro arasındakı münasibətlər yüksək səviyyədədir



*Foto Fərman BAĞIROVUNDUR*

İyunun 24-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Monteneqronun Baş naziri Duşko Markoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov bu səfərin ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. Sədr Azərbaycanla Monteneqro arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayıb.

Əlaqələrimizin inkişafında dövlət başçılarının rolunu xüsusi qeyd edən Oqtay Əsədov bildirib ki, yüksəksəviyyəli səfərlər və görüşlər zamanı aparılan danışıqlar, əldə olunmuş razılaşmalar, imzalanmış sənədlər əməkdaşlığımızın hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza yaradır.

Sədr deyib ki, Azərbaycan son illər Cənubi Qafqazda iri layihələr həyata keçirir. Monteneqro da "Cənub qaz dəhlizi"nin iştirakçılarından biri kimi bu sahədə Azərbaycanla əməkdaşlıq edir. Siyasi əlaqələrimiz yüksək səviyyədə olsa da, ticari sahədə əlaqələrin inkişaf etdirilməsinə ehtiyac var. Monteneqro hökumətinin Azərbaycanda diplomatik nümayəndəlik açması sevindirici haldır və qarşılıqlı münasibətlərin inkişafına öz töhfələrini verəcək.

Milli Məclisin Sədri beynəlxalq təşkilatlarda ölkəmizə verdiyi dəstəyə görə Monteneqro dövlətinə təşəkkürünü bildirib.

Baş Nazir Duşko Markoviç Azərbaycanda onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O, iki ölkə arasındakı əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edib.

Qonaq Azərbaycan şirkətlərinin Monteneqroya böyük investisiyalar yatırdığını və bunun turizmin inkişafına güclü dəstək verdiyini diqqətə çatdırıb. Qeyd edilib ki, Monteneqro Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və hər zaman onun yanındadır. Söhbət zamanı parlamentlərarası əlaqələrin, iqtisadi, mədəni, turizm sahələrində münasibətlərin inkişafı barədə də fikir mübadiləsi aparılıb.

# Azərbaycanın Baş naziri Bolqarıstan Baş nazirinin müavini ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov iyunun 24-də Bolqarıstan Respublikası Baş nazirinin müavini və xarici işlər naziri Yekaterina Zaxaryevanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan-Bolqarıstan münasibətlərindən danışan Baş nazir Novruz Məmmədov ölkələrimiz və xalqlarımız arasında çox yaxşı münasibətlərin olduğunu bildirərək deyib: "Azərbaycan ilə Bolqarıstan arasındakı münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Ölkələrimiz həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edirlər. Düşünürəm ki, sizin səfəriniz də ölkələrimiz arasında olan əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə töhfəsini verəcək".

Baş nazir Azərbaycan ilə Bolqarıstan arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu söyləyib. Novruz Məmmədov ölkələrimiz arasındakı iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu bildirib, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb. Baş nazir Bolqarıstanın Yunanıstan-Bolqarıstan İnterkonnektoru vasitəsilə "Cənub qaz dəhlizi" layihəsinə qoşulmasının ölkələrimiz arasındakı ikitərəfli əməkdaşlığın daha da inkişafına töhfə verəcəyini deyib.

Novruz Məmmədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyinə verdiyi dəstəyə görə Bolqarıstan tərəfinə minnətdarlığını ifadə edib.

Azərbaycan ilə Bolqarıstanın dost ölkələr olduqlarını vurğulayan Yekaterina Zaxaryeva 2015-ci ildə Prezident İlham Əliyevin Bolqarıstana səfəri zamanı imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin ikitərəfli əlaqələrin inkişaf etdirilməsi baxımından önəmli olduğunu diqqətə çatdırıb, ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində mühüm addımların atıldığını bildirib.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki önəmli rolundan bəhs edilib, enerji, turizm, ticarət, nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# *Yekaterina ZAXARYEVA:* "Bolqarıstan Azərbaycanla strateji tərəfdaşdır"



*Foto Fərman BAĞIROVUNDUR*

İyunun 24-də Milli Məclisin Sədri Oqtay Əsədov Bolqarıstanın Baş nazirinin müavini və xarici işlər naziri Yekaterina Zaxaryevanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Sədr ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu vurğulayıb. Bildirilib ki, bu yaxınlarda Bakıda keçirilmiş Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin sessiyasında təşkilata sədrlik Azərbaycandan Bolqarıstana keçib. Bu tədbirlə əlaqədar Bolqarıstan parlamentinin sədri ölkəmizdə səfərdə olub.

Vurğulanıb ki, dövlət başçılarının qarşılıqlı səfərləri və görüşləri münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə yüksəldib. 2015-ci ilin martında Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana səfəri zamanı strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanıb. Bu günədək ölkələrimiz arasında imzalanmış 68 sənəd münasibətlərimizin hüquqi bazasını təşkil edir.

Sədr parlamentlər səviyyəsində münasibətlərimizin təqdirəlayiq olduğunu söyləyərək, hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsinin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, nümayəndələrimiz müxtəlif nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edirlər.

Yekaterina Zaxaryeva Bolqarıstanla Azərbaycanın strateji müttəfiq olduqlarını vurğulayaraq, ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. Qeyd edilib ki, ölkələrimiz arasında mövcud olan yüksək siyasi dialoq iqtisadi sahədə də canlanma yaratmaq üçün yaxşı zəmin yaradır.

Qonaq dövlətlərarası münasibətlərdə qarşılıqlı səfərlərin önəmindən danışaraq Prezident İlham Əliyevin 2015-ci ildə Bolqarıstana səfərinin əhəmiyyətini qeyd edib. Bildirilib ki, son dövrdə iqtisadi sahədə artımlar müşahidə olunmaqdadır. Bu ilin mayında Bolqarıstanda Yunanıstan və Bolqarıstan Baş nazirlərinin iştirakı ilə qaz İnterkonnektorunun (İGB) təməlqoyma mərasimi baş tutub. Bu, Azərbaycan qazının Bolqarıstana və Avropa ölkələrinə nəql edilməsi üçün atılan mühüm addımlardan biridir. "Biz Azərbaycanın bu sahədəki rolunu yüksək qiymətləndiririk. Hesab edirik ki, gələcəkdə nəqliyyat, kənd təsərrüfatı, İKT, turizm sahələrində də böyük uğurlara imza ata bilərik", - deyə o qeyd edib.

# Bakıda Birləşmiş Millətlər Təşkilatının dövlət xidmətləri üzrə mükafatlandırma mərasimi keçirilib

İyunun 24-də Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən Dövlət Xidmətləri Forumu çərçivəsində BMT-nin dövlət xidmətləri üzrə mükafatlandırma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, mükafatların təqdim edilməsi mərasimində BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya regionu üzrə direktoru Alia El Yassir iştirak ediblər.

Beş fərqli kateqoriya üzrə mükafatların builki qalibləri Keniya, Braziliya, Avstraliya, İndoneziya, Argentina, Portuqaliya, Tailand, Kosta Rika, Koreya Respublikası, Çili və Avstriya olub.

# Forum çərçivəsində Dövlət Sektoru üzrə Ümumdünya Hesabatı təqdim edilib

İyunun 24-də Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumu çərçivəsində Dövlət Sektoru üzrə Ümumdünya Hesabatı təqdim edilib.

AZƏRTAC xəbər verir ki, hesabatı BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin təqdim edib. O qeyd edib ki, 2001-ci ildən etibarən hər il tərtib olunan bu hesabatlar vətəndaşların məlumatlara əlçatanlılığını təmin etməyə hesablanıb. Hesabatlar dayanıqlı inkişaf üzrə 16-cı çağırışın müddəalarına əsaslanır. Zaman keçdikcə hesabatlara qoşulan ölkələrin sayı daha da artır. Əgər 2016-cı ildə 118 ölkə hesabat təqdim edibsə, ötən il bu rəqəm 139-a çatıb.

Lui Cenmin bildirib ki, təqdim edilən hesabat 5 fəsildən ibarətdir. Həmin fəsillər institusional trendlər, korrupsiyaya qarşı mübarizə, büdcələşmə, risklərin idarə edilməsi və gender bərabərliyi üçün institutları özündə əks etdirir.

Qeyd olunub ki, bəzi ölkələrdə risklərin idarə olunması üzrə hesabatlar natamam həyata keçirilir. Həmçinin hələ də dünyada kişi və qadınların aldıqları məvaciblər arasında fərq var. Eyni işə görə qadınlara kişilərlə müqayisədə daha az məvacib ödənilir. Bu boşluqlar aradan qaldırılmalıdır.

# ASAN Beynəlxalq Assosiasiyasının yaradılmasına dair Niyyət Bəyannaməsi imzalanıb

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində iyunun 24-də dövlət xidmətlərinin göstərilməsi üzrə ASAN Beynəlxalq Assosiasiyasının yaradılmasına dair Niyyət Bəyannaməsi imzalanıb. ASAN Beynəlxalq Assosiasiyasının yaradılmasının təşəbbüskarı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir.

AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan, Türkiyə, Mərakeş, Monteneqro, İndoneziya, Əfqanıstan, Uqanda və Birləşmiş Ərəb Əmirliklərinin nümayəndələri imzalayıblar.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev sənədin imzalanmasını yüksək qiymətləndirib. O bildirib ki, ASAN Beynəlxalq Assosiasiyasının yaradılması ilə tərəfdaşlar arasında dövlət xidmətlərinin göstərilməsi sahəsi üzrə nadir əməkdaşlığın qurulması, müvafiq sahədə səmərəli idarəetmə üzrə müasir çağırışları və vacib problemləri müzakirə etmək üçün ekspertlərin, mütəxəssislərin institusional şəbəkələşməsinin yaradılması nəzərdə tutulur.

Assosiasiyanın yaradılmasına dair Niyyət Bəyannaməsi çərçivəsində, həmçinin müvafiq sahə üzrə ən qabaqcıl təcrübələrin və ekspertizaların davamlı mübadiləsi üçün institusional platforma təsis olunacaq, dövlət xidmətlərinin göstərilməsində innovasiyaların tətbiqinin təşviqi həyata keçiriləcək.

Niyyət Bəyannaməsinin imzalanmasında iştirak edən tərəfdaş dövlətlərin nümayəndələri Dövlət Agentliyinə ASAN Beynəlxalq Assosiasiyasının təsis görüşünü təşkil etdiyinə görə minnətdarlıqlarını çatdırıb, bu təşəbbüsün əhəmiyyətini vurğulayıblar.

# Azərbaycan və Türkiyə dövlət xidmətləri və e-hökumət sahəsində əməkdaşlıq edəcək

Bakıda təşkil olunan BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində iyunun 24-də Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Türkiyə Respublikası Nəqliyyat və İnfrastruktur Nazirliyi və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi arasında dövlət xidmətlərinin göstərilməsi və e-hökumət sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu imzalanıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev sənədin 3 əsas amil üzərində qurulduğunu bildirib. Diqqətə çatdırılıb ki, Niyyət Protokolu çərçivəsində dövlət xidmətlərinin göstərilməsi və e-hökumət sahəsində əməkdaşlığı və təcrübə mübadiləsini təşviq etmək üçün tərəfdaş qurumlar arasında bacarıqların artırılması, o cümlədən qabaqcıl təcrübələrin paylaşılması, mütəxəssislərin mübadiləsi və birgə araşdırmaların aparılması nəzərdə tutulur. Həmçinin ekspert məsləhətləşmələri və texniki yardımın, təhsil proqramları, təlimlər, ixtisaslaşdırılmış kurslar və digər vasitələrlə insan resursları bacarıqlarının artırılması məsələləri həyata keçiriləcək.

Tərəfdaşlar Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında qardaşlıq əlaqələrinin gücləndirilməsi, dövlət xidmətlərinin göstərilməsi və e-hökumət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində bu sənədin əhəmiyyətini vurğulayıblar.

# BMT-nin Dövlət Xidmətləri Forumu işini seminarlarla davam etdirib

## Heç kim kənarda qalmadan inklüziv və bərabər xidmətlərin göstərilməsi

Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən BMT-nin Dövlət Xidmətləri Forumu işini paralel seminarlarla davam etdirib.

AZƏRTAC xəbər verir ki, "Heç kim kənarda qalmadan inklüziv və bərabər xidmətlərin göstərilməsi" mövzusunda keçirilən birinci seminarda inklüziv və bərabər xidmətlərin göstərilməsi məsələləri araşdırılıb.

Seminarda çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov deyib ki, uzun illərdir davamlı inkişaf edən Azərbaycan bu sahədə böyük təcrübə əldə edib. Kənd təsərrüfatı hazırda Azərbaycan hökuməti üçün qabaqcıl sahələr sırasındadır. Yeni-yeni inkişaf üsullarını, müxtəlif dəstək mexanizmlərini tətbiq etməyə, hazırda vergidən azad olunmuş kənd təsərrüfatına subsidiyalar ayırmağa çalışırıq. Məqsədimiz kənd təsərrüfatını şəffaf, sadə, səmərəli hala gətirməkdir.

BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin Dövlət xidmətlərində innovasiyalar bölməsinin direktoru Con-Meri Kauzya, Özəl Universitetlər Assosiasiyasının vitse-prezidenti Eko Sri Margianti, Ekseter Universitetinin Beynəlmiləlləşdirmə və inkişaf fakültəsinin dekan müavini Endryü Massey Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında əsas rolun səmərəli şəkildə yerinə yetirilməsi məqsədilə dövlət xidmətlərinin hansı transformasiyanı keçməli olması, bu transformasiyanın necə həyata keçirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Seminar "Heç kim kənarda qalmadan Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün transformasiya", "Transformasiyanı stimullaşdırmaq üçün nə lazımdır?" və "Transformasiya fəaliyyətdə" adlı sessiyalarla davam edib.

* * *

## Dövlət sektorunda əlaqələndirilmiş yanaşmaların təmin olunması

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində növbəti seminar "Dövlət sektorunda əlaqələndirilmiş yanaşmaların təmin olunması" mövzusuna həsr edilib.

Seminarda Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsi üçün dövlət sektorunda əlaqələndirilmiş yanaşmaların təmin edilməsi məsələsi araşdırılıb. Seminarın məqsədi DİM-in tətbiqinə inteqrasiya olunmuş yanaşmaları təşviq etmək üçün müxtəlif sektorlarda, hökumət səviyyələrində, habelə hökumət və qeyri-dövlət iştirakçıları arasında əməkdaşlığın inkişaf etdirilməsi yolu ilə ölkələr tərəfindən qəbul edilmiş institusional yanaşmaları və mexanizmləri işıqlandırmaq, təhsilə, o cümlədən dayanıqlı şəhər və icmalara inteqrasiya olunmuş yanaşmalar əsasında təcrübə mübadiləsi ilə öyrənməyi təşviq etmək olub.

BMT-nin iqtisadi məsələlər üzrə eksperti Louis Meulemanın moderatorluğu ilə keçən seminarda çıxış edən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov Dayanıqlı İnkişaf Məqsədlərinin Azərbaycan kontekstində həyata keçirilməsindən danışıb. O qeyd edib ki, Azərbaycan beynəlxalq təşəbbüslərin fəal üzvüdür. "Biz dayanıqlı İnkişaf Məqsədləri proqramlarına qoşularaq çoxsaylı layihələr icra edib nailiyyətlər əldə etmişik", - deyə Vüsal Hüseynov vurğulayıb. O diqqətə çatdırıb ki, Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində çoxsaylı işlər görülüb, vacib sənədlər qəbul olunub.

Tədbirdə çıxış edən müxtəlif ölkələrin nümayəndələri DİM-in icrası istiqamətində gördükləri işlər barədə məlumat veriblər.

Seminar çərçivəsində "DİM-də inteqrasiya üçün mövcud təcrübələr, alətlər və mexanizmlər", "Təhsil sektorunda vahid yanaşmalar", "İqlim dəyişikliyini həll etmək üçün vahid yanaşmalar", "Dayanıqlı şəhər və icmalar üçün vahid yanaşmalar" və s. mövzularda keçirilən sessiyalarda müzakirələr aparılıb, suallar cavablandırılıb.

* * *

## Səmərəli və məsuliyyətli dövlət qurumlarının inkişafı

Forum çərçivəsində keçirilən "Səmərəli və məsuliyyətli dövlət qurumlarının inkişafı" mövzunda seminarda Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq üçün səmərəli və məsuliyyətli dövlət qurumlarının inkişaf etdirilməsi məsələsi araşdırılıb.

BMT-nin antikorrupsiya üzrə qlobal məsləhətçisi Anqa Similsinanın moderatorluğu ilə keçən seminarın əsas məqsədləri dövlət strukturlarında DİM-ə nail olunmasında korrupsiyanın uğursuzluğa hansı dərəcədə təsir göstərməsi, effektiv, inklüziv və məsuliyyətli dövlət qurumlarının inkişaf etdirilməsi, dövlət sektorunda korrupsiya hallarının qarşısının alınması, DİM-ə nail olunmasında irəliləyişləri sürətləndirmək üçün fərdi, institusional və digər imkanların necə inkişaf etdirilməsi və s. məsələləri müzakirə etmək olub.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Orxan İsayev bildirib ki, korrupsiyaya və onun neqativ təzahürlərinə qarşı mübarizə məsələləri müasir dövrümüzün ən aktual problemlərindən və dünya ictimaiyyətinin qarşısında duran ən aktual çağırışlardan biridir. Korrupsiyaya və onun törətdiyi mənfi nəticələrə qarşı səmərəli mübarizə olmadan ictimai rifah, vətəndaş məmnuniyyəti və dayanıqlı inkişafdan danışmaq mümkün deyil. Azərbaycan da öz növbəsində bu sosial bəlaya qarşı mübarizənin əhəmiyyəti və aktuallığını dərk edir. Bu istiqamətdə zəruri institusional və qanunvericilik islahatları həyata keçirilir.

Orxan İsayev həmçinin bildirib ki, Azərbaycan brendi olan "ASAN xidmət" modeli korrupsiyanın qarşısının alınması üzrə beynəlxalq səviyyədə ən yaxşı təcrübə kimi qəbul edilir. Əsas nailiyyətimiz isə dövlət idarəçiliyinin bütün sahələrində şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən kompleks, ardıcıl və hərtərəfli islahatlardır.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti bildirib ki, dövlət xidmətlərində texnologiyalar geniş istifadə olunmağa başlanılıb. Bunun sosial faydaları var. Dövlətlər rəqəmsal potensiala investisiyalar qoyurlar. Həmin ölkələr digərlərinə nisbətən 3,6 dəfə çox uğur qazanırlar. Dövlət xidmətlərinin rəqəmsallaşdırılması korrupsiya faktlarını azaldır.

Alessandro Frakassetti qeyd edib ki, Azərbaycanda DİM-in nail olunması istiqamətində prioritetlər müəyyən edilib və tədbirlər görülür. O, dövlət xidmətlərinin vahid pəncərədən səmərəli və şəffaf təqdim edilməsini təmin edən "ASAN xidmət" mərkəzlərinin yaradıldığını və uğurlu nəticələr əldə edildiyini də diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov innovasiyaların DİM-ə nail olunmasında əsas istiqamətlərdən biri olduğunu qeyd edib. O, dövlət sektorlarında innovasiyaların mənimsənilməsinin vacibliyini vurğulayıb. Əlavə edib ki, innovasiyaların daha çox olduğu qurumların, məsələn, "ASAN xidmət"in uğurlu təcrübəsindən yararlanmaq vacibdir.

Seminarda digər çıxış edənlər öz ölkələrində korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlərdən danışıblar.

* * *

## Dayanıqlı İnkişaf Məqsədləri üçün rəqəmsal transformasiyaya keçid

Forum çərçivəsində daha bir seminar "Dayanıqlı İnkişaf Məqsədləri üçün rəqəmsal transformasiyaya keçid" mövzusunda olub.

Seminarda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İnnovativ inkişaf və elektron hökumət məsələləri şöbəsinin müdiri Rövşən Nəcəf çıxış edib.

Azərbaycanda dövlət xidmətləri sahəsində rəqəmsallaşdırma və avtomatlaşdırmaya keçid barədə danışan şöbə müdiri "ASAN xidmət"in uğurlu fəaliyyətini qeyd edib. O bildirib ki, "ASAN xidmət" artıq Azərbaycan brendinə çevrilib.

Elektron hökumətin rəqəmsal cəmiyyətin təməlini təşkil etdiyini bildirən Rövşən Nəcəf qeyd edib ki, bu, bəşər cəmiyyətinə yeni, mütərəqqi idarəetmə üsulları ilə xidmət edir. Şöbə müdiri ölkəmizdə İKT-nin tətbiqi ilə sosialyönümlü müasir idarəetmə sisteminin bərqərar olduğunu vurğulayıb. Qeyd edib ki, yeni yaradılan imkanların əsas məqsədi xidmətlərin göstərilməsi üçün məmurlar və vətəndaşlar arasındakı təması minimuma endirmək, eyni zamanda, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır.

Diqqətə çatdırılıb ki, "Elektron hökumət" portalı (www.e-gov.az) Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və elektron xidmətlərin göstərilməsinə şərait yaradır.

Ölkəmizdə bulud texnologiyalarının tətbiqini xüsusi vurğulayan Rövşən Nəcəf Prezident İlham Əliyevin bu ayın əvvəlində imzaladığı "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Fərman barədə ətraflı məlumat verib. Azərbaycanda innovasiyaların və texnoloji yeniliklərin tətbiq olunduğunu diqqətə çatdıran şöbə müdiri bunların ölkəmizdə vətəndaşların həyat şəraitini yaxşılaşdırmaq və dövlət xidmətlərinin əlçatanlığını artırmaq üçün rəqəmsal texnologiyadan geniş istifadə üçün hər cür şərait yaratdığını deyib.

BMT-nin iqtisadi və sosial məsələlər üzrə departamentinin rəqəmsal idarəetmə şöbəsinin əməkdaşı Elida Reci bildirib ki, bu seminarda Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) və hədəflərinin tətbiqinin dəstəklənməsi üçün rəqəmsal hökumətin və qabaqcıl texnologiyaların necə istifadə ediləcəyi araşdırılır. Seminarın əsas məqsədləri rəqəmsal hökumət sahəsində mövcud qlobal və regional tendensiyaların, o cümlədən dövlət sektorunda yeni texnologiyaların tətbiqinin DİM-ə nail olunmasında yardımçı, artan və sürətləndirici rolu ilə bağlı problemləri və imkanları təhlil etmək, DİM-də rəqəmsal hökuməti təşviq etmək üçün siyasətçilər, maraqlı tərəflərlə müxtəlif tövsiyələr əsasında gələcək ssenarilər barədə düşünməkdir.

Seminar çərçivəsində "Bütün formalarda korrupsiya və rüşvətxorluğu əhəmiyyətli dərəcədə azaltmaq", "Hər səviyyədə effektiv, məsuliyyətli və şəffaf dövlət qurumlarının inkişaf etdirilməsi", "Hər səviyyədə operativ, inklüziv, iştirakçı və təqdim oluna biləcək qərarların verilməsini təmin etmək" və "İctimai informasiyaya əlçatanlığı təmin etmək" mövzularında sessiyalar keçirilib.

* * *

## Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün gender əsaslı dövlət xidmətlərinin təşviqi

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün gender əsaslı dövlət xidmətlərinin təşviqi" mövzusunda seminar keçirilib.

Seminarın əsas məqsədi siyasətçilərin və təcrübəçilərin məlumat mübadiləsinin və potensialının gücləndirilməsinə kömək etmək, dövlət xidmətlərinin gender həssaslığını artırmaq üçün innovativ təcrübələr əsasında sahələrarası və ölkələrarası biliyi əhatə etmək, xidmətlərin bütün qadın və qızlara, xüsusən də müxtəlif ayrı-seçkilik formalarına məruz qalanlara çatmasının necə təmin oluna biləcəyini müzakirə etmək olub.

Seminarda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, Azərbaycanda həmişə qadın hüquqlarının müdafiəsi xüsusi əhəmiyyət kəsb edib. Hələ 100 il bundan əvvəl Azərbaycan qadınına seçib-seçilmək hüququ verilib. Bir çox Avropa ölkələrinin ötən əsrin 40-cı illərində qadınlara belə hüquq verməsini xatırladan Hicran Hüseynova dövlətimizin dəstəyi və komitənin təşəbbüsü ilə gender bərabərliyinin təmin edilməsi üçün ölkədə görülən tədbirlər barədə danışıb.

Komitə sədri bildirib ki, bu gün Azərbaycanda hər bir qanun gender ekspertizasından keçirilir. Ölkəmizdə güclü qanunvericilik bazası mövcuddur. Eyni zamanda, problemlər də var. Problemlər əsasən qadın və uşaqların bu qanunlardan hansı formada istifadə edə biləcəyi ilə bağlıdır.

BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya regionu üzrə direktoru Alia El Yassir deyib ki, son illər dünyada uşaqların sayının artması ilə əlaqədar bir çox məktəblər açılıb. Bununla belə, bütün dünyada gender boşluğu 12,5 faiz artıb. Qızlar var ki, təhsil ala bilmir. Bütün bunların hamısı yoxsulluqla bağlıdır. İnkişaf getməyən yerlərdə buna qızlar məruz qalır. Hətta xidmətlər olduğu halda maliyyə məsələləri qadınların işini çətinləşdirir. "Çalışırıq ki, cəmiyyətin bütün təbəqələrində qadınlara dəstək olaq. Biz çalışırıq ki, büdcələr də nəzərə alınsın", - deyə o əlavə edib.

Seminarda çıxış edən Serbiyanın, Albaniyanın və digər ölkələrin nümayəndələri gender balansının qorunması, qadınların ictimai həyatda fəallığının artırılması istiqamətində gördükləri işlərdən danışıblar.

Seminar çərçivəsində "Dövlət qurumlarının gender əsaslı dövlət xidmətləri, rolları və məsuliyyətləri üçün əsas çərçivələr", "Gender əsaslı dövlət xidmətlərinin göstərilməsində innovativ təcrübələr" və digər mövzularda sessiyalar keçirilib.

* * *

## Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün həssas qrupların sosial müdafiəsi ilə bağlı yeniliklər

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində növbəti seminar "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün həssas qrupların sosial müdafiəsi ilə bağlı yeniliklər" mövzusuna həsr edilib.

Seminarda dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual məsələlər üzrə müzakirələr aparılıb, habelə dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələri araşdırılıb.

Seminarda əmək və əhalinin əsosial müdafiəsi naziri Sahil Babayev çıxış edərək Azərbaycanda əmək, məşğulluq, sosial müdafiə sisteminin inkişafı istiqamətində aparılan islahatlarda BMT-nin qurumları ilə əməkdaşlığın mühüm rolunu diqqətə çatdırıb. Nazir gələcəyin sosial təminat sisteminin formalaşdırılmasında innovasiyaların necə yardımçı ola biləcəyinə dair fikir mübadiləsinin aparılmasının önəmini qeyd edib. O, son bir ildə Azərbaycanda həyata keçirilən iki sosial paket haqqında məlumat verərək bildirib ki, həmin islahatlar ölkəmizin 4,2 milyon sakinini əhatə edir. Bu isə ölkə əhalisinin 40 faizi deməkdir. Həmin sosial paket nəticəsində minimum əməkhaqqı 130 manatdan 250 manata çatdırılaraq ümumilikdə 93 faiz artıma nail olunub.

Nazir Azərbaycanda bir milyon qaçqın və köçkün ordusunun olduğunu xatırladaraq həmin təbəqənin sosial vəziyyətinin yaxşılaşdırılması üçün görülən işlərdən də danışıb. O, nəzərə çatdırıb ki, həyata keçirilən elektron xidmətlər nəticəsində əhalinin məşğulluğu sahəsində də xeyli zəruri tədbirlər görülüb. Təkcə bu il ərzində 35 min nəfər üçün iş yeri yaradılıb. Nazir həssas qrupların tibbi, sosial reabilitasiyası ilə əlaqədar aparılan işlər barədə də məlumat verib. Xüsusilə bu ilin mayında fəaliyyətə başlayan DOST mərkəzinin işi forum iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Seminarda çıxış edən Çin, Kamboca, Serbiya, Niderland, Argentina nümayəndələri öz ölkələrinin təcrübəsində həssas qrupların müəyyənləşdirilməsi qaydaları, onların dəstəklənməsi üsulları və həmin prosesin monitorinqi, eləcə də həmin qrupa aid edilən əhali təbəqəsinin təhsil, sağlamlıq və güzəran səviyyəsi, onların cəmiyyətə inteqrasiyası üçün əlverişli ekosistemin təşviqi, fiziki məhdudiyyətli və yaşlı insanlara dövlət xidmətlərinin göstərilməsi sahəsində görülən işlər barədə danışıblar.

Sonra müzakirə olunan məsələlərlə əlaqədar suallar cavablandırılıb.

* * *

## 2030 Gündəliyinin həyata keçirilməsi üçün dövlət qulluqçularının tam hazırlanması

Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumu çərçivəsində keçirilən seminarlardan biri də "2030 Gündəliyinin həyata keçirilməsi üçün dövlət qulluqçularının tam hazırlanması" mövzusunda olub.

BMT-nin Təlim və Tədqiqatlar Mərkəzinin icraçı direktoru Nixil Set çıxış edərək sessiyada Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması üçün dövlət qulluqçularının tam hazırlanması məsələsinin araşdırılacağını söyləyib. Bildirib ki, seminarın əsas məqsədləri dövlət idarəetmə məktəblərində tədris proqramlarına Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) daxil edilməsinə dair qlobal tendensiyaları və regional perspektivləri təqdim etmək, dövlət qulluqçularının düşüncə tərzinin dəyişdirilməsinə kömək edən strategiya və amilləri müzakirə edib təhlil etmək, DİM-in tətbiqində dəyişikliklərin təşviq edilməsi və səmərəli şəkildə dəyişdirilməsi üçün metodologiyalar və təcrübələri öyrənməkdir.

Seminar çərçivəsində "Dayanıqlı inkişaf üçün 2030 Gündəliyinin həyata keçirilməsində dövlət idarəçiliyinin hazırlığı üzrə qlobal trendlər, o cümlədən regional və milli perspektivlər", "Dövlət qulluqçularının düşüncə tərzinin dəyişdirilməsinə və DİM-in həyata keçirilməsində imkanların yaranmasına kömək edən strategiya, bilik və amillər", "DİM-in tətbiqində dəyişikliklərin təşviq edilməsi və səmərəli şəkildə dəyişdirilməsi üçün metodologiyalar və təcrübələr" mövzularında sessiyalar keçirilib.

Sessiya müzakirələrlə və sual-cavabla davam edib.

* * *

## Dövlət xidmətlərinin gələcəyi: 2030 Gündəliyi kontekstində hökumətin fəaliyyətinin qabaqcıl texnologiyaların gücü ilə əlaqələndirilməsi

Forum çərçivəsində "Dövlət xidmətlərinin gələcəyi: 2030 Gündəliyi kontekstində hökumətin fəaliyyətinin qabaqcıl texnologiyaların gücü ilə əlaqələndirilməsi" mövzusunda seminar keçirilib.

Seminarın əsas məqsədi dövlət və özəl sektorun rəhbər şəxslərinin diqqətini qabaqcıl texnologiyaların çətinlikləri və imkanları müzakirəsinə cəlb etmək, dövlət xidmətlərini dəyişə biləcək və beləliklə, dövlət idarəçiliyində səmərəliliyi artıra biləcək potensial qabaqcıl texnologiyaları inkişaf etdirmək, qabaqcıl yeniliklərin tətbiqi və dövlət sektorunda həyata keçirmə imkanlarını, vətəndaşların məmnunluq əmsalının və dövlətə olan inamının daha da inkişaf etdirilməsində qabaqcıl texnologiyaların potensialını araşdırmaq üçün müzakirə platformasını təmin etmək olub.

Seminarda nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, Birləşmiş Ərəb Əmirliklərinin Yerli icmaların inkişafı üzrə naziri Hessa Essa Buhumaid, Türkiyənin nəqliyyat və infrastruktur nazirinin müavini Ömər Fatih Sayan, İndoneziyanın inzibati və bürokratik islahatlar naziri Syafruddin Kambo, "Silikon Vadisi" texnologiyasının məsləhətçi qrupunun təsisçisi Teymur Sadıqov çıxış ediblər.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov seminarın əhəmiyyətini vurğulayıb, Azərbaycanda texnologiyalar sahəsində görülən mühüm işlərdən bəhs edib.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bulud hesablama texnologiyaları barədə məlumat verib. Qeyd edib ki, rəqəmli transformasiyalar kibertəhlükəsizliyi ön plana çıxarır. Azərbaycan Avropa Şurasının kibercinayətkarlıq haqqında Konvensiyasını imzalayıb və 2009-cu ildə bunu ratifikasiya edib. Azərbaycan öz kibertəhlükəsizlik strategiyasını hazırlayır. Ölkəmiz 2009-cu ildən fərdi məlumatların işlənməsi ilə bağlı Konvensiyaya qoşulub. Bununla əlaqədar Cinayət və İnzibati Xətalar məcəllələrinə müvafiq dəyişikliklər edilib. Azərbaycan hökuməti cari il iyunun 27-də qüvvəyə minməsi gözlənilən Avropa İttifaqının kibertəhlükəsizlik aktını yaxından izləyir və bu məsələyə xüsusi önəm verir. Hazırda hökumət tərəfindən Azərbaycan Kibertəhlükəsizlik Strategiyasının qəbul edilməsi üzərində iş aparılır. Fərdi məlumatların qorunması da hökumətin diqqət mərkəzindədir.

BƏƏ-nin Yerli icmaların inkişafı üzrə naziri Hessa Essa Buhumaid ölkəsində texnologiya sahəsində görülən işlər barədə məlumat verib, gələcəyə dair planlardan bəhs edən təqdimatla çıxış edib.

Türkiyənin nəqliyyat və infrastruktur nazirinin müavini Ömər Fatih Sayan isə həm Türkiyə, həm də Türkiyə ilə Azərbaycanın texnologiyalardan ortaq və fərdi istifadə edərək gördüyü işlərdən danışıb. O, dünya praktikasında bu istiqamətdə atılan addımları diqqətə çatdırıb.

İndoneziyanın inzibati və bürokratik islahatlar naziri Syafruddin Kambo belə seminarların önəmli olduğunu deyib. Bildirib ki, bu cür müzakirələr hər bir ölkədə təhlükəsizlik və texnologiya sahəsinin inkişafına təkan verir. Qarşılıqlı əməkdaşlıq və səmərəli müzakirələr baxımından belə seminarların verdiyi töhfə böyükdür.

Seminar 3 sessiya ilə işini davam etdirib. Sessiyalarda "Hökumət üçün innovasiyalar", "Dövlət xidmətlərini təkmilləşdirə bilən texnologiyalar və innovasiyalar", "Ölkələrin dövlət idarəçiliyi, dövlət xidmətlərinin çatdırılması və qabaqcıl texnologiyaları üzrə təcrübələri" mövzularında çıxışlar olub.

* * *

## İnsan hüquqlarının və Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verən dövlət xidmətlərinin təşkilinin səmərəli modeli

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində keçirilən sonuncu seminar "İnsan hüquqlarının və Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsinə töhfə verən dövlət xidmətlərinin təşkilinin səmərəli modeli" mövzusuna həsr edilib.

Seminarda insan hüquqlarının və Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verən dövlət xidmətlərinin təşkilinin səmərəli modeli nəzərdən keçirilib.

Seminarın məqsədi insan hüquqlarının və DİM-in həyata keçirilməsinə töhfə verən dövlət xidmətlərinin göstərilməsindəki ən yaxşı təcrübələri bölüşmək, dövlət xidmətlərinin göstərilməsi ilə bağlı insan hüquqlarının və Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində ölkələrin üzləşdiyi çətinlikləri əks etdirmək, insan hüquqları və yaxşı idarəetmə sahələrində dövlət qulluqçularının hazırlanması üçün müvafiq milli dövlət qurumlarının potensialını gücləndirməklə beynəlxalq əməkdaşlıq imkanlarını müəyyənləşdirmək, hüquqa əsaslanan yanaşma vasitəsilə dövlət xidmətlərinin göstərilməsinin gücləndirilməsi və inkişafı üçün yeni fikirləri nəzərdən keçirmək, insan hüquqlarının və Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə bağlı səmərəli dövlət xidmətlərinin göstərilməsinin təməlində olan qayda və prinsipləri müəyyənləşdirmək olub.

Seminarda Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov, insan hüquqları üzrə müvəkkil Elmira Süleymanova, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti Ramin Qurbanov, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai və digərləri çıxış ediblər.

Seminarda üzv dövlətlərin birgə iş təşəbbüslərini və siyasi inteqrasiyalarını təşviq etmək üçün həyata keçirilən müxtəlif institusional yanaşmalar vurğulanıb. Dövlət xidmətlərinin göstərilməsi kontekstində insan hüquqlarının həyata keçirilməsinə dair təcrübələr bölüşülüb.

Sonra mövzu ilə bağlı müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan və Avstriya prezidentlərinə minnətdarlıq məktubu ünvanlayıb

Xəbər verildiyi kimi, iyunun 19-da Avstriyanın paytaxtı Vyana şəhərində Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin, Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin və Azərbaycanın Avstriyadakı səfirliyinin birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans keçirilib. Təşkilat Komitəsinin sədri, Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin baş katibi Şeyxülislam Allahşükür Paşazadə tədbirin yüksək səviyyədə keçirilməsinə xüsusi diqqət göstərdiklərinə görə beynəlxalq konfransın iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Bellenə minnətdarlıq məktubu ünvanlayıb. AZƏRTAC-ın təqdim etdiyi məktubda deyilir:

*"Avstriya Respublikasının paytaxtı Vyana şəhərində keçirilən "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfransın iştirakçıları, 30-a yaxın ölkəni təmsil edən dövlət, elm və din xadimləri, 20-dən çox beynəlxalq təşkilatın nümayəndələri və digər mötəbər qonaqlar adından bu tədbirin yüksək səviyyədə keçirilməsinə xüsusi diqqət göstərdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.*

*Qloballaşma və inteqrasiya proseslərinin geniş vüsət aldığı müasir dünyada islamofobiya, antisemitizm, xristianofobiya hallarının müşahidə olunduğu, terrorizm, separatçılıq, dini radikalizm kimi bəşər sivilizasiyasını təhdid edən hadisələrin yaşandığı bir zamanda Azərbaycanın dünyaya təqdim etdiyi multikulturalizm və tolerantlıq modelinə, sivilizasiyalararası əməkdaşlığa böyük ehtiyac vardır. Avropanın mərkəzi dövlətlərindən sayılan Avstriya Respublikası tərəfindən bu qlobal təşəbbüsün dəstəklənməsi olduqca təqdirəlayiqdir. "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfransın gedişatı bir daha sübut edir ki, müasir dünyada humanist ideyaların təşviqi və multikultural həyat tərzinin təbliği baxımından önəm kəsb edən, bəşəriyyətin sabitliyinə xidmət edən belə ali forumların davamlı keçirilməsi olduqca aktual və zəruridir.*

*Konfransın mötəbər qonaqları, dini qurumların və beynəlxalq təşkilatların rəhbərləri dinlər, konfessiyalar və sivilizasiyalararası dialoqa, multikulturalizm və tolerantlıq ənənələrinə xüsusi əhəmiyyət verən Avstriya və Azərbaycan dövlətinin rolunu yüksək qiymətləndirirlər. Əminik ki, konfransın ali məqsədi olan bəşəri həmrəylik ideyası sivilizasiyalararası dialoqun inkişafına, qarşılıqlı anlaşma və dostluq kimi bəşəri dəyərlərin təşviqinə və təkamülünə öz töhfəsini verəcəkdir.*

*Uca Yaradan hər zaman yardımçınız olsun! Amin".*

*"Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfransın iştirakçıları adından dərin hörmət və ehtiramla,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Təşkilat Komitəsinin sədri,***
***Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin baş katibi***

# "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfransın Vyana Bəyannaməsi



Xəbər verdiyimiz kimi, iyunun 19-da Avstriyanın paytaxtı Vyana şəhərinin "Hofburq" sarayında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin, Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin və Azərbaycanın Avstriyadakı səfirliyinin birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransın yekununda Vyana Bəyannaməsi qəbul edilib. Bəyannamədə deyilir:

*İyunun 19-da müxtəlif ölkələrin və beynəlxalq təşkilatların rəsmilərinin, dini liderlərin, ictimaiyyətin nümayəndələrinin, elm və din xadimlərinin iştirakı ilə Avstriyanın paytaxtı Vyana şəhərində keçirilmiş "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" beynəlxalq konfransının iştirakçıları:*

*sivilizasiyalararası və dinlərarası əməkdaşlığın, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verən Azərbaycan Respublikası tərəfindən Vyana Konfransına göstərilən diqqət və dəstəyi yüksək qiymətləndirərək;*

*konfransın həmtəşkilatçıları - Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinə, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinə, Cenevrə İnsan Haqları və Qlobal Dialoq Mərkəzinə və Azərbaycan Respublikasının Avstriya Respublikasındakı səfirliyinə tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildirərək;*

*Zati-müqəddəsləri Roma papası Fransisk ilə Şeyx Əhməd əl-Tayyib həzrətləri tərəfindən 2019-cu il fevralın 4-də Əbu-Dabidə imzalanmış "İnsani qardaşlıq və dünyada sülh" birgə sənədini alqışlayaraq;*

*2018-ci il iyunun 25-də BMT-nin Cenevrədəki ofisində "Dinlər, inanclar və dəyər sistemləri: bərabər vətəndaşlıq hüquqları" mövzusunda keçirilmiş ümumdünya konfransında qəbul olunmuş və BMT Baş katibi tərəfindən təsdiq edilmiş Bəyannaməni alqışlayaraq;*

*qarşılıqlı etimad və anlaşma mühitində mədəni müxtəlifliyin, sivilizasiyalararası və dinlərarası əməkdaşlığın təşviq edilməsinin sülhə, təhlükəsizliyə və bəşəri həmrəyliyə töhfə olduğunu vurğulayaraq və bu istiqamətdə səylərin artırılmasının vacibliyini qeyd edərək;*

*dünyada terrorizmin geniş miqyasda yayılması, ayrı-seçkiliyin, ksenofobiyanın, rasizmin, eləcə də dini və etnik zəmində dözümsüzlüyün artması, terrorçu və ekstremist qruplaşmalar tərəfindən dinin istismar olunması, mədəni, dini və tarixi irsin dağıdılması, qaçqınların, məcburi köçkünlərin və miqrantların humanitar fəlakət həddinə çatmış kütləvi axını nəticəsində dünyada sülhün, qlobal dialoqun və bəşəri həmrəyliyin bərqərar olmaması ilə bağlı öz dərin narahatlıqlarını ifadə edərək;*

*özündə bəşəri dəyərləri əks etdirən dinlərin dünya sivilizasiyasına, mədəniyyətinə və mənəvi irsinə əvəzolunmaz töhfə verdiklərini, humanizmin, sülhün və ədalətin bərqərar olmasına xidmət etdiklərini xüsusi vurğulayaraq;*

*davamlı tərəqqiyə, sabitlik və təhlükəsizliyə əsas maneə olan silahlı münaqişələrə, aqressiv təbliğatlara, dinlərarası və məzhəblərarası ixtilafların qızışdırılması hallarına qarşı beynəlxalq birlik tərəfindən səylərin gücləndirilməsinin zərurətini bildirərək;*

*dövlətləri, Birləşmiş Millətlər Təşkilatını, digər beynəlxalq, regional və ictimai təşkilatları, dini və dünyəvi liderləri*

*- sivilizasiyalararası və dinlərarası qarşılıqlı anlaşmanın və əməkdaşlığın davam etdirilməsinə və təşviq olunmasına;*

*- terrorizmin və insaniyyətə qarşı cinayətlərin din adı ilə bağlanması, ayrı-seçkiliyə əsaslanan rasizmin, habelə təhqiramiz olan ksenofobiyanın, antisemitizmin, xristianofobiyanın və islamofobiyanın qarşısının alınması üçün təsirli tədbirlər görməyə;*

*- din adından törədilən hər hansı terror aktını bütün dinlərə qarşı törədilmiş terror aktı kimi qiymətləndirməyə;*

*- terrorçuların öz məkrli niyyətləri naminə dinlərin müqəddəs dəyərlərindən istifadə etməsi cəhdlərinin qarşısının alınmasına;*

*- irqi, dini və etnik zəmində zorakılığa təhrik edən zərərli ideologiyaların və təbliğatların qarşısının alınmasında əməkdaşlığın artırılmasına, gənclərin bu sahədə, habelə bərabər vətəndaşlıq mövzusunda maarifləndirilməsini təşviq etməyə;*

*- Birləşmiş Millətlər Təşkilatının mərkəzi əlaqələndirici rolu vasitəsilə beynəlxalq sabitlik və təhlükəsizliyə qarşı yönəlmiş təhdid və təhlükələrin çözülməsi üçün birgə səylərin artırılması və qlobal dialoqun vacibliyini vurğulayaraq,*

*- silahlı münaqişə, təqib, zorakılıq, o cümlədən terrorizm kimi amilləri böyük qaçqın axınlarına səbəb kimi tanıyaraq, bu cür böhran vəziyyətlərin köklü səbəblərinin qarşısının alınmasına və sülh yolu ilə həllinə,*

*- Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına, xüsusilə dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət etməyə, dünyanın bir çox bölgələrində, o cümlədən Yaxın Şərqdə davam edən münaqişələrin, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yuxarıda göstərilən prinsiplərə tam uyğun olaraq sülh yolu ilə həll olunmasına töhfə verməyə;*

*- UNESCO-nun Konstitusiyasına istinadən dini, mədəni və etnik müxtəlifliyin qəbul olunması və buna hörmətlə yanaşılmasının təşviq edilməsinə;*

*- Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına riayət etməyə, insan hüquqları, qadın və uşaq haqlarının qorunması sahəsində din, elm xadimləri və ictimaiyyət xadimlərinin birgə fəaliyyətini dəstəkləməyə çağırırlar.*

# "Bəbirləri mühafizə edək" düşərgəsi çərçivəsində futbol çempionatı təşkil edilib

İyunun 19-21-də IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı, Lənkəran Rayon İcra Hakimiyyətinin dəstəyi ilə ənənəvi "Bəbirləri mühafizə edək" ekoloji yay düşərgəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, düşərgədə Lənkəran, Astara, Lerik və Masallı rayonlarından 60-a yaxın məktəbli iştirak edib.



Düşərgənin ilk günü iştirakçılar bəbirlərin həyat tərzi, yayıldığı ərazilər və təbiətdəki rolu haqqında geniş məlumatlar əldə edib, bu nadir canlı növünün qorunması mövzusunda seminarlarda, bəbirlərin populyasiyasının azalma səbəbləri ilə bağlı təqdimatda, o cümlədən müxtəlif ekoloji müsabiqələrdə, biomüxtəlifliklə bağlı bilik yarışmalarında iştirak ediblər. Həmçinin məktəblilərə təbiət fotoqrafı və rejissoru Adrian Stern tərəfindən çəkilən "Dünyanın ən çox axtarılan bəbiri" sənədli filmi nümayiş olunub.

Düşərgənin ikinci və üçüncü günlərində iştirakçılar arasında futbol çempionatı keçirilib. Oyunda Lənkəran, Lerik, Masallı və Astara rayonları üzrə 11-ci sinif şagirdlərindən ibarət 3 komanda iştirak edib. Həm qız, həm də oğlanlardan ibarət olan komandalar arasında üç oyun keçirilib. Final oyununun nəticəsi olaraq Lerik komandası çempionatın qalibi olub.

Çempionatın sonunda qalib komandaya kubok və medallar, bütün düşərgə iştirakçılarına sertifikat və xatirə hədiyyələri təqdim edilib.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə ətraf mühit və biomüxtəliflik mövzusunda düşərgələr mütəmadi əsaslarla 2014-cü ildən etibarən hər il təşkil edilir. Bu müddət ərzində düşərgələrdə Salyan, Neftçala, Goranboy, Samux, Qax, Şəki, Masallı, Cəlilabad, Yardımlı, Lənkəran, Astara, Göygöl, Lerik, Qəbələ, İsmayıllı rayonlarından ümumilikdə 500-ə yaxın məktəbli iştirak edib.

Həyata keçirilən düşərgələrin məqsədi gənclərin ekoloji sahədə maarifləndirilməsi, onlarda təbiətə qayğı hissinin inkişaf etdirilməsi, Qafqaz bəbirlərinin məskunlaşdığı yerlərin yaxınlığında yaşayan məktəblilərin bu nadir növ haqqında məlumatlandırılması və onun mühafizəsi işinin təbliğ edilməsidir.

# DİN-də naziryanı əməliyyat müşavirəsi

Daxili İşlər Nazirliyində (DİN) nazir müavinlərinin, baş idarə, idarə və paytaxtın polis orqanları rəislərinin iştirakı ilə naziryanı əməliyyat müşavirəsi keçirilib.



DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəni giriş sözü ilə açan daxili işlər naziri, polis general-leytenantı Vilayət Eyvazov respublikanın daxili işlər orqanlarına 25 ildən artıq müddətdə rəhbərlik etmiş general-polkovnik Ramil Usubovun Təhlükəsizlik Şurasının katibi kimi yüksək dövlət vəzifəsinə təyin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin daxili işlər orqanlarına böyük etimadının daha bir əyani ifadəsi olduğunu vurğulayıb.

Nazir V.Eyvazov Azərbaycan Prezidentinin ölkədə asayişin və təhlükəsizliyin təmin olunması sahəsində görülən işləri və qazanılan nəticələri yüksək qiymətləndirdiyini xüsusi qeyd edib. General-leytenant V.Eyvazov qazanılan uğurlarla yanaşı, əməliyyat-xidməti fəaliyyətdə bəzi nöqsan və çatışmazlıqların mövcudluğunu da xatırladaraq, onların həlli yollarını göstərib, bu istiqamətdə tapşırıq və tövsiyələrini verib.

Qarşıya qoyulmuş mühüm vəzifələrdən söz açan daxili işlər naziri bu sırada polisin qanunla müəyyən edilmiş vəzifələrini hər bir struktur qurumda operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirməsinin, əməkdaşların etik davranış qaydalarına ciddi əməl etmələrinin, bu işə nəzarətin gücləndirilməsinin zərurliyini və müvafiq istiqamətlərdə fəaliyyətin sistemli şəkildə davam etdirilməsini tələb edib. Həmçinin cinayətkarlığa qarşı mübarizədə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsinin, asayişin və təhlükəsizliyin daha etibarlı qorunmasının, orqan və hissələrdə qanunçuluğun möhkəmləndirilməsinin, bu mühüm istiqamətlərdə fəaliyyətin təşkilinə nazirliyin aparatının struktur qurumlarının, ərazi orqanlarının və nizami polis hissələrinin rəhbərliyinin böyük məsuliyyət hissi ilə yanaşmasının, cinayətlərin qarşısının vaxtında alınması, açılması funksiyalarının ciddi nəzarətdə saxlanılmasının və layiqincə həyata keçirilməsinin vacibliyi iştirakçıların nəzərinə çatdırılıb. Qeyd edilib ki, şəxsi heyətin Heydər Əliyev ideallarına sədaqət ruhunda tərbiyə olunması işi davamlı aparılmalı, vətəndaşların müraciətlərinə baxılmasına, qəbuluna daim xüsusi həssaslıqla yanaşılmalı, cinayətlərdən zərər çəkmiş şəxslərin hüquqlarının bərpası ilə bağlı məsələlərin həllində hər zaman operativlik göstərilməlidir. İnsanların hüquqları, azadlıqları, qanuni mənafeləri yüksək səviyyədə qorunmalı, bu iş bütün struktur qurumlarda rəhbər heyətin şəxsi nəzarəti altında gündəlik həyata keçirilməlidir.

Müşavirənin yekununda nazir Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tələb və göstərişlərinə uyğun olaraq, ölkədə vətəndaş məmnunluğunun təmin olunması, polisin insanların güvənc yerinə çevrilməsi, bütövlükdə cəmiyyətdə polisin nüfuzunun daha da yüksəldilməsi yönümündə fəaliyyət sistemli şəkildə davam etdirilməlidir.

# Azərbaycan ilə Bolqarıstan arasında əlaqələrin inkişaf perspektivləri müzakirə olunub

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bolqarıstanın Baş nazirinin müavini və xarici işlər naziri Yekaterina Zaxaryeva ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə nazirlər iki ölkə arasında bir çox sahələr üzrə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq məsələlərini müzakirə edib və əlaqələrin cari vəziyyətindən məmnunluq bildiriblər.

Nazir Elmar Məmmədyarov 2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana səfəri zamanı imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin ikitərəfli əlaqələrin inkişaf etdirilməsi baxımından başlıca konseptual sənəd olduğunu qeyd edib, son illər ərzində bu sənədin yerinə yetirilməsi istiqamətində xeyli iş görüldüyünü bildirib. Eyni zamanda, ölkələrimiz arasında ticarət dövriyyəsinin həcminin strateji əməkdaşlığımızın potensialına uyğun gəlmədiyini söyləyən nazir bu xüsusda tərəflərin birgə addımları nəzərdən keçirilməli olduğunu söyləyib.

Görüş zamanı Elmar Məmmədyarov Bolqarıstandan olan həmkarına Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən mühüm infrastruktur, enerji və nəqliyyat layihələri haqqında məlumat verib. O, Bolqarıstanın "Cənub qaz dəhlizi" layihəsi çərçivəsində Yunanıstan-Bolqarıstan interkonnektoru vasitəsilə yaradılan bu şəbəkəyə qoşulmasını təqdirəlayiq hal kimi dəyərləndirib.

Azərbaycanlı həmkarının ötən ilin oktyabrında Bolqarıstana səfərini məmnunluqla xatırlayan nazir Yekaterina Zaxaryeva iki ölkə arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin əhəmiyyətini vurğulayıb. O, "Cənub qaz dəhlizi" çərçivəsində inkişaf etdirilən layihələrin Bolqarıstan üçün ümdə əhəmiyyət kəsb etdiyini və ölkəsinin digər qonşu ölkələrlə mövcud və tikilməkdə olan interkonnektorlar vasitəsilə Balkan regionunda enerji tranziti üzrə mərkəz qismində çıxış etmək niyyətinə olduğunu bildirib.

Söhbət zamanı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi baxımından Şərq-Qərb və Cənub-Qərb nəqliyyat dəhlizləri, o cümlədən onların mühüm elementi olan Bakı-Tbilisi-Qars dəmir yolu, habelə Qara dəniz üzərindən bərə əlaqəsinin yaratdığı əlverişli perspektivlər barədə fikir mübadiləsi aparılıb.

Eyni zamanda, Bakı-Sofiya istiqamətində birbaşa hava reyslərinin iki ölkə arasında turizm mübadilələrinin artırılmasına səbəb olduğu qeyd edilərək, bu istiqamətdə əlavə dinamikaya təkan verilməsi üzrə atıla biləcək addımlar müzakirə edilib.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesi haqqında danışan Elmar Məmmədyarov münaqişənin beynəlxalq hüququn prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinin zəruriliyini bildirib. Bu xüsusda, Bolqarıstanın Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə davamlı dəstək mövqeyi məmnuniyyətlə qeyd edilib.

Tərəflər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində ənənəvi əməkdaşlığın və qarşılıqlı əsasda dəstək göstərilməsinin perspektivləri üzərində dayanaraq bu istiqamətdə də səylərin əlaqələndirilməsinə sadiq qalacaqlarını bildiriblər.

Görüşdən sonra tərəflər birgə mətbuat konfransı keçiriblər.

# Dövlət Gömrük Komitəsinin rəhbərliyi Gəncə, Göygöl və Daşkəsəndə vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbir görürlər. İyunun 24-də Dövlət Gömrük Komitəsinin rəhbərliyi Gəncə şəhərinin, Samux, Göygöl, Daşkəsən rayonlarının sakinlərini, eləcə də bu bölgələrdə məskunlaşan məcburi köçkünləri qəbul edib.

Qəbulda vətəndaşların yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Müraciətlər əsasən idxal-ixrac əməliyyatları zamanı rəsmiləşdirmə, gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Eyni gündə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov Göygöl rayonunda, komitə sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev isə Daşkəsən rayonunda vətəndaşları qəbul ediblər. Qəbullar zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

***AZƏRTAC***

# Azərbaycan Respublikası Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Rusiyada səfərdədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Baş Prokurorluq bir sıra ölkələrin prokurorluq və digər cinayət təqibi orqanları, eləcə də beynəlxalq təşkilatlarla işgüzar əlaqələr və dostluq münasibətlərinin qurulması sahəsində səmərəli fəaliyyətini davam etdirir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ölkələrimizin prokurorluq orqanları arasında ənənəvi tərəfdaşlıq münasibətlərinin və hüquqi əlaqələrin möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Rusiyalı həmkarı Yuri Çaykanın dəvətilə iyunun 24-də rəhbərlik etdiyi nümayəndə heyəti ilə Rusiyanın paytaxtı Moskva şəhərinə rəsmi səfər edib.

Səfər çərçivəsində Rusiyanın Baş prokuroru Yuri Çayka ilə keçirilmiş görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi xüsusilə qeyd olunub.

Dövlətlərimiz və xalqlarımız arasında zəngin tarixə malik və ildən-ilə daha da dərinləşən münasibətlərin, o cümlədən hüquqi sahədə əlaqələrin getdikcə inkişaf etdiyini qeyd edən Baş prokuror Z.Qaralov Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və rəhbərliyi ilə ardıcıl olaraq bütün sahələrdə olduğu kimi, sosial-iqtisadi sahədə və məhkəmə-hüquq sistemində aparılan islahatlar, o cümlədən səmərəli dövlət idarəetməsi, əhalinin həyat səviyyəsinin və sosial rifahının yüksəldilməsi üzrə tədbirlər və əldə olunmuş nailiyyətlərdən geniş danışıb. Baş prokuror ötən illər ərzində prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, gənc hüquqşünaslardan ibarət kadr korpusunun formalaşdırılması istiqamətində aparılan mütərəqqi işlər, korrupsiya ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi üçün digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqələr barədə həmkarına məlumat verib.

Görüşdə Azərbaycanın və Rusiyanın Baş prokurorluqları arasında tərəf dövlətlərin qanunvericilikləri və tətbiq edilən beynəlxalq müqavilələr rəhbər tutularaq "Əməkdaşlıq haqqında" saziş imzalanıb.

Sonra Baş prokuror Z.Qaralov möhkəm dostluğa, mehriban qonşuluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan Azərbaycan-Rusiya əlaqələrinin bir çox sahələrdə olduğu kimi özünü hüquq mühafizə sahəsində də büruzə verdiyini vurğulamış, Azərbaycan və Rusiya Baş prokurorluqları arasında imzalanmış sazişin əlaqələrin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm sənəd olacağına və yeni perspektivlər üçün əlverişli zəmin yaradacağına əminlik ifadə edib.

Rusiyanın Azərbaycan ilə hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verdiyini deyən Yuri Çayka imzalanmış sənədin iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini bildirərək münasibətlərin daha da dərinləşdirilməsi üçün böyük perspektivlərin olduğunu qeyd edib.

Görüşdə cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən terrorçuluq, korrupsiya, iqtisadiyyat və yüksək texnologiyalar sahəsində cinayətlərlə mübarizə sahəsində əməkdaşlıq haqqında danışılıb, ölkələrimizin vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, hüquqi yardım, təlim səfərləri, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün yekununda Baş prokuror Zakir Qaralov Rusiya Federasiyasının Baş prokuroru Yuri Çaykaya Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli qanunu ilə təsdiq olunan "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" yubiley medalını təqdim edib.

Görüşdə Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu da iştirak edib.

# Daha yüksək rifaha yol açan sosial siyasət

## Prezident İlham Əliyevin imzaladığı sərəncamlar bu istiqamətdə həyata keçirilən silsilə tədbirlərin növbəti mərhələsidir

Əvvəli 1-ci səh.

*Ona görə bundan sonra da minimum əməkhaqqı, minimum pensiya və digər sosial müavinətlərin artırılması nəzərdə tutulur. İmkan daxilində biz bunu edəcəyik. Bu sahədə öz siyasətimizi ardıcıl şəkildə aparacağıq".*

Beləliklə, dövlət başçısının iyunun 18-də imzaladığı 17 sərəncamla ilin əvvəlindən start götürən sosial islahatların ikinci mərhələsi başladı. Bu mərhələdə minimum aylıq əməkhaqqı 180 manatdan 250 manata çatdırılacaq, hərbi və hüquq mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşları artırılacaq. Artımlar ümumilikdə 20-50 faiz təşkil edəcək.

İkinci sosial paket çərçivəsində həyata keçiriləcək tədbirlər 1 milyon 350 min nəfər vətəndaşın əməkhaqqının artımına səbəb olacaq. Bu da ölkə üzrə muzdla işləyənlərin 80 faizini təşkil edir. Həmin insanlardan 1 milyonu dövlət, qalanları özəl sektorda işləyənlərdir. 750 min nəfərin pensiyasında artım baş verəcək. Bu isə ölkədə ümumi pensiyaçıların təqribən 60 faizi deməkdir. Digər pensiyaçılara gəldikdə, 2020-ci ilin yanvarından bütün pensiyalar artacaq.

Belə ki, orta aylıq əməkhaqqı artımı ilə bağlı proqnoz bu il üçün 15 faizdir. Buna uyğun olaraq 2020-ci ilin 1 yanvar tarixindən bütün pensiyaçıların pensiyası indeksasiya nəticəsində əlavə 15 faiz artacaq. Beləliklə, hazırda 160 manat alan pensiyaçı oktyabrdan 200 manat, yanvardan isə 230 manat pensiya alacaq.

Bir daha xatırladaq ki, bu ilin fevral ayından həyata keçirilən birinci sosial paket 3 milyon vətəndaşın sosial rifahının yüksəldilməsində mühüm rol oynayır. Prezidentin iyunun 18-də imzaladığı sərəncamlar isə 2,1 milyon nəfərin əməkhaqqının və pensiyasının artımına əhəmiyyətli dərəcədə təsir göstərəcək. İkinci sosial paketin də illik maliyyə çəkisi 2 milyard manatdır. Amma 2019-cu ilin yerdə qalan dövrü üzrə bu istiqamətə 660 milyon manat yönəldiləcək. Sosial paketlər çərçivəsində ayrılacaq vəsaitlər iqtisadi islahatlar nəticəsində qazanılan pullardır. Bu vəsait Dövlət Neft Fondundan ayrılan transfertlər deyil.

Bir məsələni də qeyd edək ki, cari ilin əvvəlindən etibarən qəbul olunmuş sosial qərarlar qlobal iqtisadiyyatda baş verən neqativ meyillərin ölkə əhalisinin sosial təminatına mənfi təsirini minimallaşdırmağa imkan vermişdi. Prezidentin son sərəncamları isə əhalinin gəlirlərinin artmasına, yığım imkanlarının genişlənməsinə şərait yaradır.

İkinci sosial paketi təsdiqləməklə Prezident İlham Əliyev "Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır" tezisini bir daha təsdiq etdi. Eyni zamanda son sərəncamlar göstərdi ki, 2019-cu il həqiqətən vətəndaşların sosial müdafiəsinin yüksəldilməsi baxımından fərqli ildir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Sosial islahatlar inqilabi xarakter almışdır

Əvvəli 1-ci səh.

Sərəncamların birində dövlət büdcəsindən maliyyələşdirilən bir sıra elm və mədəniyyət müəssisələrində çalışan insanların əməkhaqlarının artırılması nəzərdə tutulur. Bu müəssisələr arasında "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin də olması kollektivimiz tərəfindən sevinclə qarşılanmış, bizi səfərbər etmiş, hər birimizi öz vəzifə və vətəndaşlıq borcunu xalqa daha ləyaqətlə, şövqlə qaytarmağa ruhlandırmışdır.

Onu da qeyd etməliyəm ki, ensiklopediyanın maarifçilik funksiyasını yüksək qiymətləndirən ölkə rəhbəri Azərbaycan Milli Ensiklopediyası Redaksiya Heyətinin sədri kimi ensiklopediya kollektivinə hər zaman böyük diqqət və qayğı ilə yanaşmış, qarşımıza çıxan bütün problemlərin həllinə yaxından kömək etmişdir. Azərbaycan Prezidentinin sərəncamı ilə kollektiv üçün Akademiya şəhərciyində yeni, möhtəşəm, funksional cəhətdən bütün müasir tələblərə cavab verən bina inşa edilmiş və 2014-cü il mayın 5-də kollektivin istifadəsinə verilmişdir. Prezidentin 24 noyabr 2015-cil il tarixli sərəncamı ilə Azərbaycan Milli Ensiklopediyasının 50 illik yubileyinin keçirilməsi qərara alındı. Bir ay sonra yubiley münasibətilə ensiklopediyanın bir qrup əməkdaşının orden, medal və fəxri adlarla təltif edilməsi barədə sərəncam verildi. Bütün bunlar dövlətin ensiklopediya nəşrinə olduqca böyük əhəmiyyət verdiyini əks etdirir və biz kollektivimizə göstərilən bu etimadı ardıcıl olaraq fəaliyyətimizlə doğrultmağa çalışırıq.

Yetişən gəncliyin maariflənməsi yönündə Milli Ensiklopediyanın əhəmiyyətini nəzərə alan Prezident İlham Əliyevin göstərişi ilə ensiklopediya cildlərinin kitabxana variantı (hər cildin 25 min nüsxəsi) respublikanın bütün kitabxanalarına, mədəniyyət qurumlarına, ali və orta məktəblərinə pulsuz paylanılır.

İnsanların zəruri bilikləri əldə etməsində və mənimsəməsində universal ensiklopediyaların rolu olduqca böyükdür. İnternet və digər elektron informasiya vasitələrindən fərqli olaraq, ensiklopediyalar daha zəngin, dəqiq və yoxlanılmış materialları özündə ehtiva etməklə oxucu üçün daha məqsədəuyğun informasiya mənbəyidir.

Milli universal ensiklopediyalar, o cümlədən Azərbaycan Milli Ensiklopediyası oxucuların informasiyaya artan tələbatını ödəməklə yanaşı, cəmiyyətin sosial toplum kimi birləşməsinə də müsbət təsir göstərir. Ensiklopediya ona qoyulan xərcləri ancaq xalqın maariflənməsinə verdiyi töhfələrlə qaytara bilir. Çünki ölkənin və cəmiyyətin uğurları yalnız yüzlərlə görkəmli şəxsiyyətlərdən deyil, həm də milyonlarla yaxşı təhsil almış savadlı insanlardan asılıdır.

***Tofiq NAĞIYEV,***
***"Azərbaycan Milli Ensiklopediyası"***
***Elmi Mərkəzinin direktoru, akademik***

# Tarixi kökə söykənən diqqət və qayğı

Əvvəli 1-ci səh.

Təsadüfi deyil ki, Heydər Əliyevin respublikaya birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Həmin illərdə 700-dən çox məktəb binası tikilərək istifadəyə verilmişdir. O illərdə respublikada ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə çatmışdı. Böyük rəhbərin 70-ci illərdə yüzlərlə azərbaycanlı gəncin respublikamızın hüdudlarından kənarda yüksək ali təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür kömək göstərməsi də onun xeyirxahlığının bariz ifadəsidir.

Ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2003-cü il tarixli fərmanı isə təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, onun beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratmışdır. Bu gün təhsil siyasəti Azərbaycan Prezidenti İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

Azərbaycan məktəbi bu gün həm də məzmunca yeniləşir, modernləşir. Azərbaycan Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qarşıya qoyulan tələblərə uyğun olaraq ölkəmizin təhsil sistemində uğurlu islahatlar həyata keçirilir. Məqsəd milli təhsilimizi ən yüksək dünya standartları səviyyəsinə çatdırmaqdır.

Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin mühüm prinsipləri sırasındadır. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir. Ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəblər tikilmiş, bir çox təhsil ocaqları üçün yeni korpuslar inşa olunmuşdur. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülmüşdür.

Bir sözlə, Prezident İlham Əliyevin təhsilimizə göstərdiyi diqqət və qayğı nəticəsində uğurlu inkişaf özünü göstərir. Sumqayıt təhsildə özünün zəngin ənənələri və qabaqcıl nailiyyətləri ilə respublikada öncül yerdə qərarlaşır.

Biz təhsil işçiləri özümüzü xoşbəxt hesab edirik. Çünki siyasi, iqtisadi sabitliyin hökm sürdüyü ölkəmizdə çalışırıq ki, şagirdlərimizi daha savadlı yetişdirək, gələcəkdə onlar vətənimizə, millətimizə layiq övladlar olsunlar.

Ölkə rəhbərinin imzaladığı yeni sərəncamla müəllimlərin əməkhaqlarının 2019-cu il sentyabrın 1-dən 20 faiz artırılması biz təhsil işçilərini çox sevindirdi.

Böyük əminliklə deyə bilərik ki, müəllimlərimiz bundan sonra da vəzifələrinin öhdəsindən layiqincə gələcək, təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, gənc nəslin vətənpərvərlik, azərbaycançılıq məfkurəsi ruhunda yetişdirilməsi, yüksək peşəkarlığa və səriştəyə malik mütəxəssislər hazırlanması üçün əzmlə çalışacaqlar.

***Raqif ŞİRİNOV,***
***Sumqayıt şəhər Yusif Məmmədəliyev adına 31 saylı tam orta məktəbin tarix müəllimi***

# Prezidentin qayğısı məsuliyyətimizi daha da artırır

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən, beynəlxalq aləmdə böyük nüfuz qazanan dövlətlərindən birinə çevrilmişdir. Dövlət başçısının apardığı məqsədyönlü daxili və xarici siyasət sayəsində ölkə iqtisadiyyatı inkişaf etmiş və hər sahədə olduğu kimi, təhsil sahəsində də uğurlar artmışdır. Təhsildə uğurların qazanılmasında müəllimlərin əməkhaqlarının vaxtaşırı artırılması da mühüm rol oynamışdır. Onların əməkhaqlarının artırılması 2003-cü ildən bəri həmişə davamlı olmuşdur.

Prezidentin 18 iyun 2019-cu il tarixli əməkhaqlarının artırılması barədə sərəncamları ölkəmizin iqtisadi qüdrətinə inamın, xalqın rifah halının yaxşılaşdırılmasına yönələn istəyin yeni, daha bir parlaq təzahürüdür. Minimum əməkhaqqının 250 manata qaldırılması, dövlət ümumi təhsil müəssisələrində, eləcə də peşə məktəblərində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşlarının 20 faiz artırılması yüz minlərlə insanın əməkhaqlarının nəzərəçarpan dərəcədə qalxması deməkdir. Bu, dövlət başçısının daim xalqın yanında olmasının göstəricisidir. Göstərilən qayğı və diqqətə görə bizim təhsil işçiləri də ölkə Prezidentinə sonsuz minnətdarlıqlarını bildirirlər. Qayğıya cavab olaraq biz bundan sonra da gənc nəslin Heydər Əliyev irsinə, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda təlim-tərbiyəsi üçün bütün qüvvə və bacarığımızı sərf edəcəyik.

***Səriyyə KƏLƏNTƏRLİ,***
***Lənkəran 4 saylı məktəb-liseyin müəllimi***

# İsmayıllı müəllimləri minnətdarlıq edirlər

Prezident İlham Əliyevin diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əməkhaqqının 20 faiz artırılması ilə əlaqədar bu günlərdə imzaladığı sərəncam İsmayıllının 1500 nəfərdən çox müəlliminə də şamil olunub. Onların da minnətdarlıq hissi sonsuzdur.

Sevincimiz tək maddi artıma görə deyil, eyni zamanda ölkə rəhbərindən hər gün gördüyümüz diqqətə, qayğıya görədir.

Azərbaycan xalqının sosial həyatını tamamilə yeni bir istiqamətə yönəldən ölkə başçısının əməkhaqlarının, xüsusilə minimum əməkhaqqının əhəmiyyətli dərəcədə artması barədə sərəncamları bir daha onu təsdiqləyir ki, bütün istək və arzularımızı təcəssüm etdirən, sosial, iqtisadi, ideoloji, milli, hərbi təhlükəsizliyimizin təminatçısı yalnız Prezident İlham Əliyevdir.

***Hafiz KƏRİMOV,***
***Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı İsmayıllı rayon komitəsinin sədri***

# Monteneqronun Baş naziri Azərbaycana rəsmi səfərə gəlib

Monteneqronun Baş naziri Duşko Markoviç iyunun 23-də Azərbaycana rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Monteneqro hökuməti başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Monteneqronun Baş naziri Duşko Markoviçi hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənov və digər rəsmi şəxslər qarşıladılar. Azərbaycan və Monteneqronun Dövlət himnləri səsləndirildi.



# Monteneqronun Baş naziri Duşko Markoviç İçərişəhərlə tanış olub

Azərbaycanda rəsmi səfərdə olan Monteneqronun Baş naziri Duşko Markoviç iyunun 24-də İçərişəhərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Qız qalasından başlanan tanışlıq zamanı qonağa Bakının rəmzlərindən biri sayılan abidənin tarixi barədə məlumat verilib.

Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Prezident İlham Əliyevin tapşırıqları əsasında 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb.

Qız qalasının yaxınlığındakı Sıratağlı dini-memarlıq kompleksinin ərazisindəki daş ekspozisiyanın yenidən təşkili işləri qonağın böyük marağına səbəb olub.



Gəzinti zamanı Baş nazirə və nümayəndə heyətinin üzvlərinə UNESCO-nun Dünya Mədəni İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan abadlaşdırma və bərpa işləri barədə məlumat verilib. Qeyd edilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri var və bunlar dövlət tərəfindən qorunur.

Daha sonra qonaqlar orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar sarayı kompleksi ilə tanış olublar.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. Abidə Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bugünədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

İçərişəhərlə tanışlıq Monteneqronun Baş nazirində zəngin təəssürat yaradıb.

# UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində "Dünya irsi. Gənc Peşəkarlar Forumu" işə başlayıb

İyunun 24-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "Dünya irsi. Gənc Peşəkarlar Forumu" işə başlayıb.

AZƏRTAC xəbər verir ki, forum UNESCO-nun Dünya İrs Komitəsinin iyunun 30-dan iyulun 10-dək Bakıda keçiriləcək 43-cü sessiyası çərçivəsində təşkil edilib.

Tədbiri AzMİU-nun rektoru Gülçöhrə Məmmədova açaraq forumun ilk tədbirinin təmsil etdiyi ali təhsil ocağında təşkil olunmasından məmnunluğunu ifadə edərək onun işinə uğurlar arzulayıb.

Ölkəmizin zəngin mədəni irsi haqqında söz açan rektor Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə İçərişəhər və Qobustan qoruğunun UNESCO-nun Dünya İrsi Siyahısına salınaraq bəşəri status qazandığını vurğulayıb. Forum iştirakçılarına ölkəmizdə olduqları müddətdə Azərbaycanın memarlıq abidələri ilə yaxından tanış olmağı tövsiyə edib.

Forumda sessiyanın keçirilməsi ilə bağlı yaradılmış Təşkilat Komitəsinin sədri, mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək bildirib ki, ölkəmizin son illərdə sürətli inkişaf yoluna qədəm qoyması dünya birliyində yüksək qiymətləndirilir. Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının öz tədbirlərini Azərbaycanda keçirməsi müstəqil dövlətimizin nüfuzundan xəbər verir.

Nazir Azərbaycan-UNESCO münasibətlərinin inkişafında, qarşılıqlı əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın əvəzsiz xidmətlərini xüsusi vurğulayıb. Bildirib ki, Dünya İrs Komitəsinin 42-ci sessiyasında Azərbaycan bir il müddətinə komitənin sədri seçilib. Ölkəmiz üçün böyük əhəmiyyətə malik belə bir qərarın qəbul edilməsi UNESCO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasının göstəricisidir.

Diqqətə çatdırılıb ki, iyulun 2-dək davam edəcək Ümumdünya İrs Gənc Peşəkarlar Forumunda dünyanın 30 ölkəsini təmsil edən 30 gənc irs mütəxəssisi iştirak edir. Son illər Dünya İrs Komitəsinin illik sessiyaları çərçivəsində ənənəvi olaraq təşkil olunan Gənc Peşəkarlar Forumunun builki mövzusu "Ümumdünya İrsi: Qlobal Çağırışlar üçün Yerli İdeyalar"a həsr edilib. Forumun ümumi məqsədi XIX əsrdə dünyada irsin idarə edilməsində mövcud problemlər və imkanların üzə çıxarılmasıdır.

Sonra Dünya İrs Mərkəzinin direktoru Mehtild Rösslerin iştirakçılara videomüraciəti təqdim edilib.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri - UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının baş katibi Elnur Sultanov çıxışında Azərbaycanın UNESCO dəyərlərinə daim sadiq olduğunu bildirərək Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən bir çox ölkələrdə dünya irsinin bərpası sahəsində görülən işlər haqqında məlumat verib. Baş katib bu il UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılmasının 25 illiyinin qeyd olunduğunu vurğulayıb və Milli Komissiyanın fəaliyyəti barədə danışıb.

Daha sonra E.Sultanov dünyada baş verən silahlı münaqişələr zamanı mədəni irsin dağıdılması mövzusuna toxunaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində ölkəmizin zəngin mədəni irsinin vəhşicəsinə məhv edilməsi və bu məsələnin UNESCO-da gündəmə gətirilməsi barədə görülən işlər haqqında məlumat verib.

Qonaqları tədbir iştirakçılarına təqdim edən forumun əməliyyat qrupunun rəhbəri, Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini - Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə bildirib ki, tədbirin proqramı rəngarəngliyi ilə seçilir. Belə ki, forumun ilk 4 günü fərqli məkanlarda - Azərbaycan Memarlıq və İnşaat Universiteti, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu və Qəbələ-İsmayıllı-Lahıc bölgəsində baş tutacaq. Əcnəbi və yerli irs ekspertlərinin iştirakı ilə bir sıra təqdimatlar ediləcək, "dəyirmi masa"lar yolu ilə iştirakçılar 1972-ci il Dünya Mədəni və Təbii İrsinin Qorunması ilə bağlı Dünya İrs Konvensiyasına dair praktiki biliklər əldə edəcəklər. Həmçinin Dayanıqlı İnkişaf Məqsədləri və Yeni Şəhər Gündəliyinin qlobal konsepsiyaları ilə tanış olacaqlar. Sonda forum iştirakçıları Dünya İrs Komitəsinin 43-cü sessiyasında öz bəyannamələrini təqdim edəcəklər.

Tədbirdə Dünya İrs Mərkəzinin direktoru Mehtild Rösslerin iştirakçılara videomüraciəti olub.

Sonra Mədəniyyət Nazirliyi ilə AzMİU arasında təhsil, innovasiya, elm, ixtisasartırma və məşğulluq sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Qeyd edək ki, günün ikinci yarısında "Şərq və Qərbin harmoniyası", "Mədəni irsin qorunması və bərpası" mövzusunda məruzələr dinlənilib və müzakirələr aparılıb.

# Yaqub MAHMUDOV: "Azərbaycan tarixçilərinin əsas məqsədi real tariximizi dünya ictimaiyyətinə çatdırmaqdır"



İyunun 24-də "Azərbaycan tarixində erməni amili və onun tarixi kökləri" mövzusunda elmi konfrans keçirilib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutundan AZƏRTAC-a bildirilib ki, konfransın təşkilatçıları Tarix İnstitutu və Tətbiqi Tədqiqatlar Fondudur.

Konfransı giriş sözü ilə açan Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov bildirib ki, Azərbaycan xalqı terrora, soyqırımlarına və deportasiyalara ən çox məruz qalmış xalqlardan biridir: "200 ildir ki, xalqımız faciələrlə dolu bir tarix yaşayır. Bu qanlı tarix ermənilərin Cənubi Qafqaza köçürülməsi ilə başlayıb".

"Xalqımıza sovet dönəmində saxta tarix təqdim olunmuşdu. Guya Cənubi Qafqazın aborigen, yəni ən qədim yerli əhalisi ermənilərdir, biz isə Altaylardan köçüb gəlmişik. Belə halların qarşısını almaq məqsədilə İrəvan xanlığının tarixini və uydurma "böyük Ermənistan" nəzəriyyəsinin əleyhinə kitablar çap etdirmişik. "Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" və digər kitablar müxtəlif dünya dillərinə tərcümə olunaraq xarici ölkələrdə yayılıb", - deyə akademik qeyd edib.

Yaqub Mahmudov deyib ki, Azərbaycan tarixçilərinin əsas məqsədi real tariximizi dünya ictimaiyyətinə çatdırmaq və saxta erməni təbliğatının qarşısını almaqdır. Tarix İnstitutunda aparılmış tədqiqatlar nəticəsində sübut edilib ki, 1918-ci ilə qədər Cənubi Qafqazda heç zaman erməni dövləti olmayıb.

Konfransda "Sovet dövlətinin Cənubi Qafqazdakı milli siyasətində erməni amili" mövzusunda məruzə ilə çıxış edən Tətbiqi Tədqiqatlar Fondunun sədri İbrahim Əliyev vurğulayıb ki, sovet dönəmində erməni amilinin gücləndirilməsinə xüsusi qayğı göstərilib: "1948-1953-cü illərdə azərbaycanlılar Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya olunmuş və orada xaricdən gətirilmiş ermənilər yerləşdirilmişdir. 1945-1985-ci illərdə Cənubi Qafqaza 150 mindən çox erməni köçürülüb".

Tarixçi alimlər Cəbi Bəhramov, Kərim Şükürov, İlqar Niftəliyev, Kamran İsmayılov və başqaları bildiriblər ki, ermənilər Cənubi Qafqaza gətirilmə etnosdur və bugünkü Ermənistan respublikası Azərbaycanın tarixi torpaqlarında yaradılıb.

# “Xalq Əmanəti” layihəsinin növbəti nəşri Mirzə Şəfi Vazehə həsr olunub

“Xalq Bank”ın “Xalq Əmanəti” layihəsinin on səkkizinci nəşri böyük Azərbaycan şairi, mütəfəkkiri, maarifçi-pedaqoqu Mirzə Şəfi Vazehin yaradıcılıq irsinə həsr olunub. “Vazeh” (ifadəli, aydın) təxəllüsü ilə Azərbaycan və fars dillərində yazıb-yaradan Mirzə Şəfi 1794-cü ildə Gəncədə doğulub.






Erkən yaşlarında mədrəsədə dinin əsaslarını öyrənmiş Mirzə Şəfi təhsilini başa vurduqdan sonra Azərbaycan və Şərq ədəbiyyatı, sufilik fəlsəfəsi ilə dərindən maraqlanıb. Gənc şair yazdığı əsərlərində insan ruhunun əzəmətini, sevgi, həyat eşqi, gözəllik kimi dəyərləri vəsf edib. Vazehin qələmindən çıxan “Yusif və Züleyxa”, “Sədi və şah” poemaları, çoxsaylı qəzəlləri, rübailəri, kəskin satira və yumorla dolu aforizmləri dövrü üçün çox cəsarətli nümunələr idi. Lakin şairin yaradıcılığı, onun tədris və maarifçilik sahəsində səyləri din xadimlərinin ürəyincə deyildi. Böyük təzyiqlər altında Mirzə Şəfi 1840-cı ildə doğma şəhərini tərk edərək, o vaxt Qafqazın mütərəqqi mədəniyyət, elm və təhsil mərkəzi sayılan Tiflisə köçməyə məcbur olur. Mirzə Şəfi Tiflis məktəbində mükəmməl bildiyi “nəstəliq” xətti ilə yazıdan, sonra isə Şərq dillərindən və ədəbiyyatdan dərs deyirdi. Şair öz evində “Divani-Hikmət” ədəbi məclisi yaratmışdı. Dövrünün tanınmış şair, yazıçı və filosofları, o cümlədən Vazehin şagirdi və davamçısı Mirzə Fətəli Axundzadə axşamlar tez-tez bu məclisdə toplaşardılar. Eyni zamanda, Mirzə Şəfi Azərbaycan poeziyasının ilk müntəxəbatını yazır və Tiflis gimnaziyası üçün “Tatar-rus lüğətini tərtib edir (İ.Qriqoryevlə birgə).

Mirzə Şəfi Vazehin ədəbi məclisinin dinləyicilərindən biri Qafqazın tədqiqatçısı, alman tərcüməçi, ondan bir neçə il ərzində Şərq dilləri dərsi alan Fridrix Martin fon Bodenştedt olub. Bodenştedtin sözlərinə görə, Vətəninə dönərkən Vazeh ona öz əlyazmalarını verir, o isə müəlliminə əlyazmaları tərcümə edib nəşr edəcəyini və bir nüsxəsini müəllifə göndərəcəyini vəd edir. Bodenştedt 1850-ci ildə “Şərqdə min bir gün” kitabını nəşr edir və həmin kitabda azərbaycanlı müəllimi, şair Mirzə Şəfiyə və onun şeirlərinə xüsusi yer ayırır. Kitab böyük uğur qazanır və 1 il sonra həmin kitabın məzmunu genişləndirilərək “Mirzə Şəfinin nəğmələri” adı ilə ayrıca şeir toplusu kimi çap edilir. 23 il keçəndən sonra Bodenştedt “Mirzə Şəfinin irsindən” adlı daha bir toplu nəşr etdirir ki, bu kitabda o artıq şeirlərin əvvəlki kitablarda söylədiyi kimi, Mirzə Şəfiyə deyil, ona məxsus olduğunu iddia edir. Vazehin “nəğmələri” Almaniyada nəşr edildiyi 1850 və 1851-ci illərdən sonrakı 40 il ərzində 145 dəfə çap olunmuş, bu dövr ərzində Avropanın əsas aparıcı dillərinə çevrilmiş, dünya şöhrəti qazanmışdı. O dövrün reallığı nəzərə alınarsa, Mirzə Şəfinin Avropadakı şöhrətinin miqyasını təsəvvür etmək çox çətindir. Dövrünün böyük musiqiçisi, rus pianoçusu və bəstəkarı Anton Rubinşteyn Mirzə Şəfidən seçdiyi 12 şeir əsasında silsilə romanslar bəstələmişdi ki, bu əsərləri 1855-ci ildə böyük Avstriya-macar bəstəkarı Ferens List bəyənmiş və nəşrinə kömək göstərmişdir. “İran motivləri” adı ilə populyarlıq qazanan romansları sonradan digər böyük rus bəstəkarı Pyotr Çaykovski alman dilindən rus dilinə tərcümə etmiş, dünya opera sənətinin əfsanələrindən biri Fyodor Şalyapin isə onları uzun illər uğurla ifa etmişdir. 1887-ci ilin noyabr ayında isə Berlinin küçələrini Fridrix Vilhelm teatrında Emil Polun librettosu və bəstəkar Karl Milyokerin “Mirzə Şəfinin şərqiləri” operettasının afişaları bəzəyirdi.

Mirzə Şəfi Vazehin “Bütün əsərləri” “Xalq Əmanəti” kollektivinin təcrübəsində ən mürəkkəb işlərdən biri olub. Beş ildən çox müddət ərzində üzərində müxtəlif ölkələrin çoxsaylı mütəxəssislərinin çalışdığı, zərrə-zərrə toplanaraq üç dilə tərcümə edilən külliyyatın gəncəli müdriki və onun yaradıcılığını xalqımıza yenidən qaytaracağı şübhəsizdir. Azərbaycan, rus və alman dillərində işıq üzü görən kitabda böyük şairin bütün əsərləri yer alıb.

Mirzə Şəfi Vazehin alman dilindəki irsi - Fridrix fon Bodenştedtin çap etdirdiyi üç kitabda yer alan bütün poetik mətnlər nəzərə alınarsa, 351 şeirdən ibarətdir. Şairin əsasən N.Qrebnev və L.Maltsev tərəfindən rus dilinə tərcümə olunan əsərlərinin sayı 400-ə yaxındır. Bu şeirlərin yarısından çoxunu eyni şeirlərin müxtəlif tərcümələri təşkil edir. Orijinal şeirlərlə birlikdə ana dilimizə tərcümələrin ümumilikdə sayı isə heç vaxt 100-ü ötməyib.

Yaradıcı qrup, ilk növbədə, əski alman əlifbasında olan bütün şeirləri yeni alman əlifbasına keçirdi. Bu şeirlər Mirzə Şəfinin Azərbaycan və rus dillərində indiyədək mövcud şeirləri (tərcümələri) ilə tutuşduruldu və hər üç dildə çatışmayan şeirlər müəyyənləşdirildi. Bu şeirlərin Azərbaycan və rus dillərində sətri tərcümələri hazırlandı. Eyni zamanda, Azərbaycan və rus dillərində mövcud olan şeirlər bir-biri ilə tutuşdurularaq bu istiqamətdə də boşluqlar müəyyənləşdirildi - Azərbaycan dilində çatışmayan 270, rus dilində 180, alman dilində isə 15 şeirin sətri və bədii tərcümələri hazırlandı.

Bu prosesdə alman dilinin tanınmış mütəxəssisləri, alimlər və eləcə də Mirzə Şəfi yaradıcılığının azərbaycanlı tədqiqatçıları Akif Bayram, Fəxrəddin Veysəlli, Vilayət Hacıyev, Yusif Savalan yaxından iştirak ediblər. Almaniyadan tərcüməçi-ədiblər Orxan Aras və Karl H.Kiel mətnləri əski alman əlifbasından yenisinə keçirib və alman dilində bədii tərcümələri hazırlayıb, görkəmli rus şairi Mixail Sinelnikov, istedadlı şair-tərcüməçilər - Nicat Məmmədov və Alina Talıbova mətnləri rus dilinə çeviriblər. Adları çəkilən rus dili tərcüməçilərinin işləri ilə yanaşı, kitaba əsasən N.Qrebnev və L.Maltsevin tərcümələri olmaqla F.Kaluqin, B.Markov, S.Nadson, İ.Prodan, İ. və A.Txorjevskilər, P.Çaykovksi, N.Eyfert, P.Yakuboviç, A.Şeller-Mixaylov və V.Luqovskoyun tərcümələri salınıb.

Oxucular Mirzə Şəfi Vazehin “Bütün əsərləri”ni Azərbaycan dilində, ana dilimizdə olan orijinal şeirlərdən başqa, Xəlil Rza Ulutürk, Balaş Azəroğlu, Aslan Aslanov, Azad Yaşar, Pünhan Əzimli və Yusif Savalanın tərcümələrində oxuyacaqlar.

Tərcümə və mətnlər üzərində işlər bitdikdən sonra şeirlərin sıralanması, yaxud Mirzə Şəfi Vazehin ilk “Bütün əsərləri”nin tərtibi prinsipləri müəyyənləşdirilməli idi. 4 şərti kitabda toplanan şeirlərin, I kitabında Vazehin ana dilində, sonra isə fars dilində olan şeirləri yer alıb. II kitabda Mirzə Şəfinin “Şərqdə min bir gün” kitabına daxil edilmiş (şairin şeirləri toplanmış və Almaniyada çap olunan ilk kitabdır) şeirləri toplanıb. Bu kitabın ilk nəşrində şeirlərin sayı 40-dan artıq olsa da, sonradan həmin şeirlərin böyük hissəsi Bodenştedtin nəşr etdiyi digər kitablara salındığı nəzərə alınaraq bu hissəyə yalnız 18 şeir daxil edilib. III kitaba “Nəğmələr”dəki şeirləri, IV kitabda isə “Mirzə Şəfinin irsindən” kitabındakı şeirləri daxil edilib. Həm Azərbaycan, həm rus dillərindəki versiyalarda silsilələr və ya yarımbaşlıqlar alman versiyasında olduğu kimi saxlanılıb.

Əlamətdardır ki, kitabın nəşri şairin anadan olmasının 225-ci ildönümünə təsadüf edir.

“Xalq Əmanəti” layihəsi “Xalq Bank” tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir. Layihə xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması məqsədini daşıyır. Layihə çərçivəsində nəşr olunan kitablar üç dildə - Azərbaycan, ingilis, rus dillərində çap olunur. Nəşrlər ölkənin ali və orta təhsil müəssisələrinə, uşaq evləri və kitabxanalara, müxtəlif fondlara, dövlət müəssisələrinə, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına, eləcə də sənətsevərlərə hədiyyə olunur. Ötən zaman ərzində xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Mikayıl Abdullayev, eləcə də Mahmud Tağıyev, Vəcihə Səmədova, Kamal Əhməd, Ələkbər Rzaquliyev, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinovun, şəhid-heykəltəraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil olunub və bədii albomlar nəşr edilib. Xalq şairləri Məmməd Araz, Hüseyn Arif, Xəlil Rza Ulutürk, unudulmaz Mikayıl Müşfiqin seçilmiş əsərləri, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin “Azərbaycan sikkələri” kitabı və üççildlik “Aşıq ədəbiyyatı antologiyası” işıq üzü görüb.

II Avropa Oyunları

# Minskdə medal yağışı

Belarusun paytaxtı Minskdə II Avropa Oyunları davam edir. Bütün idman növlərində bir-birindən maraqlı mübarizələrin şahidi oluruq. Sözsüz ki, son dörd gündə idmançılarımız qazandıqları medallarla idman ictimaiyyətinin diqqətini özlərinə cəlb edə biliblər. Düzdür, hələlik qızıl medal olmasa da, 4 gümüş və 7 bürünc medal qazanan idmançılarımızın uğuru təqdirəlayiqdir.



## İki gün, 5 medal

İyunun 23-də cüdo yarışlarının ikinci günü idmançılarımız üçün uğurlu olub. Cüdoçularımız ölkəmizin hesabına daha 2 medal yazdırıblar. 73 kq çəki dərəcəsində yarışan Rüstəm Orucov gümüş, Hidayət Heydərov bürünc medala layiq görülüblər.

“Minsk-2019”da Azərbaycan yığmasının bayraqdarı olan Rüstəm Orucov mübarizəyə 1/16 final mərhələsindən başlayıb. İlk görüşündə monakolu Sedrik Bessini 57 saniyəyə ippona salan cüdoçumuzun 1/8 finaldakı rəqibi Rio Olimpiadasının qızıl mükafatçısı, italyan Fabio Bazile olub. Titullu rəqibinə də qalib gələn cüdoçumuz adını 1/4 finala yazdırıb. Bu mərhələdə erməni idmançısı Ferdinand Karapetyana vaza-ari xalı ilə qalib gələn idmançımız yarımfinala yüksəlib. Onun final yolunda rəqibi yunanıstanlı Georgios Azoidis olub. Görüşü ipponla başa vuran Rüstəm finala çıxıb. Həlledici mərhələdə isveçli Tommi Makiasa uduzan idmançımız II Avropa Oyunlarını gümüş medalla başa vurub.

Eyni çəkidə yarışan Hidayət Heydərov 1/16 finalda macarıstanlı Mikloş Unqvarini vaza-ari xalı, 1/8 finalda isə israilli Din Yaakov Gemeri ipponla məğlub edərək növbəti mərhələyə yüksəlib. Dörddəbir finalda yunanıstanlı Georgios Azoidisə ipponla uduzan Hidayət bürünc medal uğrunda təsəlliverici görüşdə ermənistanlı Ferdinand Karapetyanla qarşılaşıb. Rəqibinə ipponla qalib gələn cüdoçumuz bürünc medal uğrunda görüşə vəsiqə qazanıb. Bu mərhələdə gürcüstanlı Laşa Şavdatuaşviliyə ipponla qalib gələn Hidayət “Minsk-2019”u bürünc medalla başa vurub.

Qadınların yarışında isə Nuriyyə Axundova (63 kq) 1/16 finalda rumıniyalı Stefania Adelina Dobreyə uduzaraq mübarizəni erkən dayandırıb.

İyunun 24-də cüdo yarışlarında daha 5 çəkidə qaliblər müəyyənləşib. 90 kq çəki dərəcəsində yarışan Məmmədəli Mehdiyev 1/16 final mərhələsində Belarus təmsilçisi Yeqor Voropayevə qalib gələrək adını səkkizdəbir finala yazdırıb. Bu mərhələdə fransalı Aurelien Disse ilə görüşən cüdoçumuz qələbə qazanaraq dörddəbir finala yüksəlib. Bu mərhələdə türkiyəli Mikail Özerlərə uduzan Məmmədəli təsəlliverici görüşdə isveçrəli Ciril Qrossklaus ilə qarşılaşıb. Rəqibini məğlub edən cüdoçumuz mübarizəni bürünc medal uğrunda davam etdirib. Hollandiyalı rəqibi Noel Vant End ilə üz-üzə gələn cüdoçumuz tatamini qələbə ilə tərk edərək Oyunların bürünc mükafatçısı olub.

100 kq çəkidə yarışan Elmar Qasımov 1/16 finalda ukraynalı Anton Savitskiyə vaza-ari fəndi ilə qalib gələrək 1/8 finala yüksəlib. İdmançımız bu mərhələdə estoniyalı Qriqori Minaşkini ipponla məğlubiyyətə uğradaraq adını dörddəbir finala yazdırıb. O, yarımfinala gedən yolda fransalı Siril Mane ilə görüşdə uduzub. Cüdoçumuz təsəlliverici görüşdə monteneqrolu Danilo Pantiçi mübarizədən kənarlaşdıraraq bürünc medal uğrunda qarşılaşmada Belarus təmsilçisi Daniel Mukete ilə üz-üzə gəlib. Maraqlı və gərgin keçən görüşdən qalib ayrılan Elmar “Minsk-2019”u bürünc medalla başa vurub.

100 kq çəkidə digər təmsilçimiz Zelim Kotsoyev 1/16 finalda serbiyalı Boyan Dosen üzərində ipponla qələbə qazansa da, 1/8 finalda Belçika təmsilçisi Toma Nikiforova uduzub.

+100 kq çəkidə Uşanqi Kokauri 1/8 finalda sloveniyalı Vinçentso Vito Draqiçlə qarşılaşmadan qalib ayrılaraq adını dörddəbir finala yazdırıb. Bu mərhələdə hollandiyalı Roy Meyeri məğlub edən U.Kokauri yarımfinala vəsiqə qazanıb. Yarımfinalda rusiyalı İnal Tasoyevlə güləşən təmsilçimiz uduzaraq final şansını əldən verib. Bürünc medal uğrunda qarşılaşmada avstriyalı Stefan Heqi ilə güləşən təmsilçimiz məğlubiyyətlə barışaraq Oyunları medalsız başa vurub.

Qadınların mübarizəsində +78 kq çəkidə İrina Kindzerska 1/8 finalda almaniyalı Yasmin Kuelbsi, 1/4 finalda isə britaniyalı Sara Adlinqtonu ipponla məğlub edərək yarımfinala adlayıb. Finala gedən yolda Belarus təmsilçisi Marina Slutskaya ilə qarşılaşan təmsilçimiz uduzaraq 3-cü yer uğrunda döyüşdə qüvvəsini sınayıb. Ukraynalı Qalina Tarasova ilə üz-üzə gələn təmsilçimiz qalib gələrək yarışın bürünc mükafatını qazanıb.

Beləliklə, cüdoçular II Avropa Oyunlarını bir gümüş və dörd bürünc medalla başa vurublar.

## Rüfət və Lorenso 1/4 finalda

İyunun 23-də II Avropa Oyunlarının üçüncü günündə boks yarışlarında iki çəki dərəcəsində 1/16, beş çəki dərəcəsində isə 1/8 final mərhələsinin görüşləri keçirilib. Həmin gün Azərbaycanın üç boksçusu rinqə çıxıb.

Rüfət Hüseynov (49 kq) 1/8 finalda İsrail təmsilçisi David Alaverdiyanla qarşılaşıb. Görüşdə 5:0 hesabı ilə inamlı qələbə qazanan R.Hüseynov 1/4 finala yüksəlib. O, bu mərhələdə İtaliya təmsilçisi Federiko Serra ilə görüşəcək.

Mübarizəyə 1/16 finaldan başlayan Bəxtiyar Qazıbəyov (64 kq) Niderland idmançısı Enriko Lakruza uduzub.

1/16 finalda Gürcüstan təmsilçisini mübarizədən kənarlaşdıraraq 1/8 finala yüksələn Kamran Şahsuvarlı (75 kq) isə 1/4 finalda mübarizəni dayandırıb. O, İrlandiya təmsilçisi Maykl Nevinə məğlub olaraq “Minsk-2019”da iştirakını başa vurub.

Dünən isə boks yarışlarında Azərbaycanın daha 4 idmançısı rinqə çıxıb. Kişilərin mübarizəsində 56 kq çəki dərəcəsində yarışan Tayfur Əliyev 1/8 finalda ukraynalı Nikola Butsenko ilə qarşılaşıb və uduzaraq mübarizəni dayandırıb.

52 kq çəki dərəcəsində döyüşən təmsilçimiz Məsud Yusifzadə 1/8 finalda ukraynalı Dmitri Zamotayevlə qarşılaşıb. “Uruçye Arena”da baş tutan döyüş Ukrayna boksçusunun qələbəsi ilə başa çatıb.

69 kq çəkidə mübarizə aparan Lorenso Sotomayor isə 1/4 finala gedən yolda Adem Fetahoviçlə (Bosniya və Herseqovina) üz-üzə gəlib. Rəqibini 4:1 hesabı ilə məğlub edən boksçumuz növbəti mərhələyə yüksəlib.

Qadınların mübarizəsində 69 kq çəkidə yarışan Məryəm Cəbrayılova 1/8 finalda macarıstanlı Vivyen Budai ilə qarşılaşıb. Gərgin keçən görüş macarıstanlı boksçunun qələbəsi ilə yekunlaşıb.

## Akrobatlardan 3-cü medal

İyunun 23-də “Minsk-2019”un üçüncü günündə akrobatika gimnastlarımız II Avropa Oyunlarında üçüncü medalı qazanıblar. Akrobatika gimnastikası yarışında təmsilçilərimiz Ruhidil Qurbanlı-Abdulla Əl-Məşayxi cütlüyü qarışıq hərəkətlər üzrə qarışıq komandaların yarışında 29,540 xal toplayaraq Oyunların gümüş medalına sahib olub.

Rusiyanı təmsil edən Viktoriya Aksyonova - Kiril Startsev dueti 29,580 xalla Oyunların çempionu olub. Bürünc medala 29,420 xal toplayan Olqa Melnik-Artur Belyakov cütlüyü (Belarus) layiq görülüb.

Xatırladaq ki, bu, Ruhidil Qurbanlı və Abdulla Əl-Məşayxinin “Minsk-2019”da üçüncü medalıdır. İdmançılarımız srağagün bir gümüş və bir bürünc medal qazanmışdılar.

## Samboçular “Minsk-2019”u 3 medalla başa vurdular

II Avropa Oyunlarında sambo yarışları başa çatıb. İyunun 23-də Azərbaycanın üç samboçusu mübarizə aparıb. 52 kq çəki dərəcəsində çıxış edən Ağasif Səmədov Oyunları gümüş medalla başa vurub.

Beləliklə, sambo yığmamız “Minsk-2019”da üç medalla (bir gümüş, iki bürünc) kifayətlənib.

II Avropa Oyunlarında 4 günün yekunlarından sonra Azərbaycan 11 medal (4 gümüş, 7 bürünc ) qazanıb.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Barama tədarükü davam edir





*Əvvəli 1-ci səh.*

Bundan əlavə, istehsal olunmuş yaş baramanın qəbul məntəqəsinə təhvil verilməsi ilə bağlı şərait yaradılıb, subsidiya sənədləri hazırlanıb. Hazırda barama təhvili davam edir və kümçülər daha yüksək məhsul istehsalı üçün səylə çalışırlar.

Kümçülük sahəsi üzrə ixtisaslaşmış kəndlərdən biri də Bucaqdır. Bucaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini, kümçülüklə də məşğul olan Anar Rəşidov deyir ki, bu il əvvəlki illərlə müqayisədə havalar isti keçdiyindən barama tədarükünə tez başlanıb. Kənd üzrə ümumilikdə 340 qram ipəkqurdu toxumu paylanıb. Müqavilə bağlanan 8 kümçünün təxminən 650 kiloqram barama tədarük etmələri gözlənilir.

Kənd sakin Suqra Məmmədova da kümçülüklə məşğuldur. Dediyinə görə, vaxtilə ailələri kümçülüklə məşğul olub. İpəkqurdunun qidalanmasında onlara iki il əvvəl əkdikləri tinglərin köməyi olub.

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***

*Təkrar*

# “Azərişıq” ASC müxtəlif mal-materialların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 6 (altı) LOT üzrə keçirilir:
LOT-1
KTM, yuva, panel və müxtəlif elektrik mallarının satın alınması - 400 manat
LOT-2
Müxtəlif informasiya və kommunikasiya texnologiyaları mallarının satın alınması - 400 manat
LOT-3
İnteryer avadanlığının satın alınması - 400 manat
LOT-4
Tikinti və transformator təmiri üçün lazım olan malların satın alınması - 400 manat
LOT-5
Müxtəlif dayaqların satın alınması - 400 manat
LOT-6
Müxtəlif sayğac və aksesuarların satın alınması - 400 manat

Azərişıq ASC
Hesab No: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab No: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93; daxili (23-32)).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir *(https://etender.gov.az/).*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 15 iyul 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 22 iyul 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 23 iyul 2019-cu il tarixində saat 16:00-da Ələsgər Qayıbov küç., 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

Təkrar

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun nəzdində olan sosial xidmət müəssisələrinə "Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlər"in satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**- Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlər.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Bakı şəhəri, Həsən bəy Zərdabi, 80 (əlaqələndirici şəxs: Tender komissiyası (012 530 29 03) ünvanından ala bilərlər.

**İştirak haqqı: 500 (beş yüz) manat**
**VÖEN: (DSMF) 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**H/Nom AZ91CTRE00000000000002138206**
**Büdcə gəlirlərinin təsnifat kodu: - 142319**
**Büdcə səviyyəsinin kodu: - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 30 bank günü);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **12 iyul 2019-cu il saat 17:00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **23 iyul 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi, 80 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **24 iyul 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi, 80 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi mərkəzlərin layihələndirilməsi ilə bağlı işlərinin açıq tender üsulu ilə satın alınmasını elan edir

**Tender 11 LOT üzrə keçirilir.**

**Tenderin predmeti:** Mərkəzlərin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 1:** Quba rayonunda Uşaq bərpa mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 2:** Masallı rayonunda Uşaq bərpa mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 3:** Ağcabədi rayonunda Uşaq bərpa mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 4:** Bakı şəhərində İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 5:** Gəncə şəhərində İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 6:** Quba rayonunda İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 7:** İsmayıllı rayonunda Yetkinlik yaşına çatmayan kimsəsiz uşaqlar üçün 25 yerlik sosial sığınacaq və 30 yerlik ixtisaslaşdırılmış reabilitasiya mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 8:** Quba rayonunda Yetkinlik yaşına çatmayan kimsəsiz uşaqlar üçün 25 yerlik sosial sığınacaq və 30 yerlik ixtisaslaşdırılmış reabilitasiya mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 9:** Bakı şəhərində Xəzər rayonunun sahilində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzlərinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 10:** Lənkəran şəhərində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzlərinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 11:** Xaçmaz rayonu, Nabran qəsəbəsində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzlərinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Tender komissiyası, (012) 596-44-09) ünvanından ala bilərlər.

| | |
|---|---|
| **İştirak haqqı:** | **Hər Lot üzrə 300,0 (üç yüz) manat** |
| **Satınalan təşkilat:** | **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** |
| **VÖEN:** | **1700093011** |
| **Bank:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **KOD:** | **210005** |
| **Müxbir Hesabı:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **SWIFT** | **CTREAZ22** |
| **H/HESABI:** | **AZ80CTRE00000000000002138501** |

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **17 iyul 2019-cu il saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **25 iyul 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **26 iyul 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun aparatına və yerli orqanlarına "Digər maşın və avadanlıqlar"ın satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**- Fondun aparatına və yerli orqanlarına "Digər maşın və avadanlıqlar"ın satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi, 80 (əlaqələndirici şəxs: Tender komissiyası (012 530 29 03) ünvanından ala bilərlər.

**İştirak haqqı: 500 (beş yüz) manat**
**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu: - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 30 bank günü);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **12 iyul 2019-cu il saat 17:00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **23 iyul 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi, 80 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **24 iyul 2019-cu il saat 17:00-da** Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi, 80 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

**LOT 1 - 2500 km KSPPTVtr-1x2x0,52 naqili**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etməyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı:
**LOT 1: 1000 AZN**

**Bank rekvizitləri:**
**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Hesab: AZ62AZPO91015461200420100166**
**VÖEN: 9900037711**
**Bank: Azərpoçt MMC PF 1 saylı filialı**
**Kodu: 691011**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **22.07.2019-cu il saat 17:00-a** qədər və yuxarıda göstərilən sənədləri **26.07.2019-cu il saat 11:00-a** qədər PORTAL vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **26.07.2019-cu il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

E-şərtlər toplusunu **24.06.2019-cu il saat 11:35-dən** sonra əldə edə bilərsiniz.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 08 may və 22 may 2019-cu il tarixlərində dərc olunmuş elana əsasən Dövlət Radiotezliklər İdarəsinin LOT 1, bir ədəd pikap tipli minik avtomobilin satın alınması üzrə təklif daxil olmadığından keçiriləcək açıq tender prosedurunun vaxtı 24.07.2019-cu il tarixdə saat 11:00-da Bakı şəhəri Droqal döngəsi 702-ci məhəllə ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən avtomobillərin təmiri xidmətinin satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 03.06.2019-cu il tarixli qərarı ilə "My Auto" MMC kotirovka sorğusu prosedurunun qalibi seçilmişdir.

Qalib şirkətlə 24.06.2019-cu il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Qəbələ Tarix-Diyarşünaslıq Muzeyinin bədii tərtibat işlərinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT 1 - Qəbələ rayonundakı Tarix-Diyarşünaslıq Muzeyinin bədii tərtibat işləri**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **AZ1000, Bakı şəhəri, Hökumət evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanından (əlaqələndirici şəxs: Mahmudova Afaq, əlaqə nömrəsi: 012 493-05-24)** ala bilərlər.

**İştirak haqqı: LOT 1 - 150 manat**
**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26.07.2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **05.09.2019-cu il saat 17:00** qədər **AZ1000, Bakı şəhəri, Hökumət evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **06.08.2019-cu il saat 14:00-da AZ1000, Bakı şəhəri, Hökumət evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Email: muzeyinfo@gmail.com**

***Tender komissiyası***

### B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən Qəbələ Tarix-Diyarşünaslıq Muzeyinin bədii tərtibat işlərinin satın alınması ilə əlaqədar 16 aprel 2019-cu il və 30 aprel 2019-cu tarixlərində elan edilmiş açıq tender müsabiqəsində iştirakçı sayı yetərsay olmadığı səbəbindən açıq tender proseduru baş tutmamış hesab edilir.

***Tender komissiyası***

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 25-də Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Harri O`Konnor keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru, Gennadi Petrika, Martin Şuster və YSPQ-nin nümayəndəsi polkovnik-leytenant Ralf Bosshard aparacaqlar.

## Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub



Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi mətbuat tədqiqatçısı, professor **ŞİRMƏMMƏD HÜSEYNOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Əməyin mühafizəsi və texniki təhlükəsizlik şöbəsinin mütəxəssisi Ədalət İsgəndərliyə anası **ŞAHBAZİ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aftandil Babayev Nazim Həsən oğlu Aslanova anası **MƏDİNƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin kollektivi mərkəzin direktoru Xudayət Həsənliyə anası **ŞAHBAZ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İlham Cəfərov, İslam Əliyev, Akif İsgəndərov və Əli İbrahimov Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktoru Xudayət Həsənliyə anası **ŞAHBAZ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin professoru **ŞİRMƏMMƏD HÜSEYNOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və universitetin kollektivi Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü, Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru **ŞİRMƏMMƏD HÜSEYNOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9053
Sifariş 2093
Qiyməti 40 qəpik